

## Ermənistan rəhbərliyi sülhdən yayınmaq üçün yeni üsullar arayır

*Son günlər Rusiyanın Qarabağ ərazisindəki hərbi kontingentinin davranışları, bədniyyətli və üstüörtülü mesajlar diqqətdən yayınmır. Paralel olaraq, Ermənistan baş naziri Paşinyanın müxtəlif istiqamətli bəyanatları. Ermənilərin Hadruta, hətta Şuşaya qaytarılması ilə bağlı çıxışları ciddi mətləblərdən xəbər verir.*

Səh.9


# UNİKAL

№11 (2145) 17 mart 2023-cü il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev

www.unikal.az

unikal-1@mail.ru




## Elmar Məmmədyarovdan növbəti qalmaqallı çıxış



## Türk Dövlətləri liderləri bir arada

Səh.3

## Həftənin sualı: sabiq nazirin "paxıllığını çəkənlər" kimlərdir?

*Sabiq xarici işlər naziri Elmar Məmmədyarov uzun aradan sonra geniş müsahibə verib. Lakin bu müsahibəyə cəmiyyətin marağı böyük olmadı. Səbəbi anlaşılandır - Məmmədyarov postunu kifayət qədər neqativ səbəblərlə itirmişdi. Həmin səbəblər arasında "Tovuz döyüşləri" zamanı evdən işləməsini söyləyib işə çıxmamasından tutmuş rəhbəri olduğu nazirlikdə keçirilən antikorrupsiya əməliyyatında aşkarlanan yeyinti, rüşvət faktları xüsusi yer tuturdu. Nəticədə Elmar müəllimin ictimaiyyət arasında onsuz da zəif olan nüfuzu tamamilə sarsıldı.*

Səh.7

## "Əmlakların sənədləşməsini kortəbii şəkildə həyata keçirmək düzgün olmaz"



*Milli Məclisin Regional məsələlər komitəsinin üzvü, deputat Kamran Bayramov "Unikal"a müsahibə verib. O, Şəhərsalma və Tikinti Məcəlləsinə təklif olunan dəyişikliklərin əhəmiyyətindən, bu dəyişikliklərin vətəndaşlara faydasından və sənədsiz evlərin sənədləşdirilməsi istiqamətində...*

Səh.4

## Ərdoğanın prezidentliyə namizədliyi irəli sürüldü



*AK Partiya Parlament Qrupu Rəcəb Tayyib Ərdoğanın prezidentliyə namizədi qrup qərarı verib. "Unikal" xəbər verir ki, bu barədə "Anadolu" Agentliyi məlumat yayıb. Qeyd edək ki, Türkiyədə növbəti prezident və parlament seçkiləri bu il mayın 14-də keçiriləcək.*

Səh.9

## Cahangir Əsgərovun "böyük uğurunun" pərdəarxası



*Bu günlərdə bəzi KİV-lər məlumat yaydılar ki, 2022-ci il AZAL üçün ötən illərə nisbətən daha müsbət bir il kimi qiymətləndirilir: çünki pandemiyadan əvvəlki göstəricilərə nail olunub, sərnişin daşımaları artıb, uçuş coğrafiyası genişləndirilib. Belə nəticəyə isə "Azərbaycan Hava Yolları"...*

Səh.11

# Fatimənin köməkçisini maşın vurdu



***Bakının Binəqədi rayonunda yol-nəqliyyayı hadisəsi zamanı bir nəfər xəsarət alıb.***

"Unikal" APA-ya istinadən xəbər verir ki, hadisə Azadlıq prospektində qeydə alınıb.

Belə ki, 1991-ci il təvəllüdlü Bayramzadə Aytac Xalis qızı Kratos restoranından çıxaraq əks tərəfə keçmək istəyərkən onu minik avtomobili vurub. Yaralı ağır vəziyyətdə xəstəxanaya çatdırılıb. Qeyd edək ki, A.Bayramzadə rəqqasə Fatimənin köməkçisidir.

Fatimə Axşam.az-a açıqlamasında Aytacın səhhətindən danışıb. O bildirib ki, hazırda vəziyyəti ağırdır: "Dünən çəkilişdə idik, məndən sonra ad gününə getməli idi. Özü də hərarəti var idi, deyirdi, evə tez gedəcəyəm. Ad günündən çıxıb evə getmək istəyəndə maşın vurub. Yolu keçirmiş... Hazırda "Semaşko"dadır ( 1 saylı Şəhər Klinik Xəstəxanası). Bir azdan ambulans gələcək və başqa klinikaya köçürəcəklər. Vəziyyəti ağırdır, yerindən tərpətmək olmaz. Amma başqa xəstəxanaya köçürülməlidir. Başından zədə alıb, bədənində sınıqlar var. Həkimlər tam dəqiq nəsə deyə bilmir. Amma deyirlər ki, özünə gəlməsə, iki gündən sonra komaya düşə bilər (ağlayır)".

Fatimə qəzanı törədən şəxslə bağlı "Hazırda o da xəstəxanadadır. Heç yerə qaçmayıb" sözlərini deyib.

# "İstəyərdim Bülənt Ərsoy kimi atam olsun" - Günel Ələkbərova



***Müğənni Günel Ələkbərova TikTok-dakı fəaliyyətindən danışıb.***

"Unikal" axşam.az-a istinadən xəbər verir ki, sənətçi "Şou-xəbər"ə açıqlamasında sözügedən sosial şəbəkədə pul xatirinə oturduğunu deyib: "Maddi marağım olmasa, TikTok-da oturmaram. Digər məşhurlar da mənim kimi... Bəziləri yalandan deyir ki, eləbelə ordayam. Hətta çoxu TikTok-da oturana pis baxırdı. İndi özləri oturur, pul da qazanırlar. Əvvəl qazancımı dedim, gözə gəldim. Amma qazanıram".

Xeyli çəki alan Günel onu türkiyəli müğənni Bülənt Ərsoya oxşadan jurnalistə "Nə edim, belə şirinəm. Arıq qızlar üçün ürəyim gedir. Amma arıq nəyə lazımdır, qadın dediyin ətli, budlu olmalıdır. Olsun, Bülənt divadır. Amma görün məni kimə oxşadırsınız... Elə anam demirəm, amma istəyərdim elə atam olsun. Doğrudan deyirəm" cavabını verib.



# Oksana indi də bu aktyora "Nə yaxşı ki varsan!" deyir

***Aktrisa Oksana Rəsulova tərəf müqabili Ziya Ağa ilə bağlı paylaşım edib.***

"Unikal" olay-a istinadən xəbər verir ki, teatr səhnəsindən Ziyayla fotosunu izləyiciləriylə bölüşən Oksana onunla bağlı xoş sözlər paylaşıb.

"Nə yaxşı ki varsan, nə yaxşı ki bu sənətdəsən, nə yaxşı ki tanıdım səni, dəyərlisən, var ol. İstədiyin hər bir şey inşallah gerçəkləşsin, sən buna layiqsən", - deyə, Oksana bildirib.

Qeyd edək ki, Oksana ilə Ziya "İnstinkt", "Yad qadının məktubu" tamaşalarında və "Geri dönənlər" filmində tərəf müqabili olub.

# "Müğənni olmadığım üçün..."

***Aktyor Elşən Orucov trend olan mahnılardan danışıb.***

"Unikal" olay-a istinadən bildirir ki, sənətçi bu haqda "Söhbət var" verilişində qonaq olarkən söz açıb.



Orucov ifaların trenddə olmasını qurma adlandırıb: "Müğənni olmadığım üçün rahat deyə bilirəm. Bunu tam səmimi deyəcəm ki, bu dəqiqə trenddə olanların hamısı süni trenddir. Heç kimi də qınamıram. Baxırlar ki, bu əgər belə gündəmdə qalırsa, məcbur gedirlər. Onlar hamısı bilir ki, bu sünidir. Əgər bir mahnı getdiyin hər yerdə qulaq asılmırsa, sevilmirsə, mümkün deyil... İnsan birinci özünü aldadırsa, artıq onun səhvi orada başlayır. Bu saat son 10 trend hamısı qurmadır və bunu da hamısı bilir".

# "Qadın "qarpız" kimidir, kəsəndə görürsən ki..."

***"Gərək elə bir insanla ailə qurasan ki, sonradan peşman olmayasan. Yaxşı bir insan, səni anlayan olsun. Sonra illərinə heyifin gəlir. Xərclənən pullar, başqa şeylər boşdur. Əsas gedən illərdir. Boşanmaya çatana qədər anlayırsan ki, boşdur".***

Bu sözləri klarnet ifaçısı Hüseyn Məhəmmədoğlu "Səhər mərkəzi" verilişində deyib. Musiqiçi evlilikdən danışarkən, həyat yoldaşı seçməyin çətin olduğunu vurğulayıb: "Düzgün seçim etmək həyatda ən önəmli məsələlərdən biridir. Qadınlar "qarpızdır". Qarpızı kəsirsən, bir də görürsən ki, içi ağdır (gülür). Demək olmaz ki, bütün günahlar kişilərdədir və ya qadınlardadır. Fərqlidir... Amma insan ailə qurur ki, xoşbəxt yaşasın, gələcəyini düşünsün. Bir də görürsən ki, aləm dəydi bir-birinə".

Qeyd edək ki, H.Məhəmmədoğlu bir neçə il əvvəl birinci həyat yoldaşından ayrılıb. O, ikinci dəfə aktrisa Aysel İbrahimova ilə evlənib. Onun bu nikahdan bir oğul övladı var.



## "Yaxın vaxtlarda sülh müqaviləsi ilə bağlı..." - Paşinyan

***"İrəvan tezliklə Bakının sülh müqaviləsi ilə bağlı növbəti təkliflərinə öz müşahidələrini təqdim edəcək".***

"Unikal" xəbər verir ki, bunu Ermənistanın baş naziri Nikol Paşinyan hökumətin bugünkü iclasında bildirib.

Baş nazirin sözlərinə görə, Ermənistan bu yaxınlarda Azərbaycandan sülh müqaviləsi ilə bağlı yeni təkliflər alıb və bununla da müzakirələrin 4-cü mərhələsinə keçib: "Yaxın vaxtlarda müzakirə edib müşahidələrimizi təqdim edəcəyik. Biz sülh gündəminə sadiqik və ondan kənara çıxmayacağıq".

Qeyd edək ki, sülh müqaviləsi üzərində iş prosesi 2022-ci ilin martında Azərbaycanın Ermənistana 5 bəndlik sənədi təhvil verməsi ilə başlayıb. Bundan sonra İrəvan və Bakı sazişin yekun variantı ilə bağlı təkliflərini müzakirə edirlər.

"Rusiya Dağlıq Qarabağa sülhməramlılar göndərmək qərarı ilə mülki əhalinin təhlükəsizliyinin və mülki infrastrukturun qarantı rolunu öz üzərinə götürüb" - deyən Paşinyan Rusiyanın təhlükəsizlik funksiyasını tam şəkildə yerinə yetirəcəyinə ümid etdiyini açıqlayıb: "Lakin əgər bizim dostumuz və müttəfiqimiz Rusiya Federasiyasının hansısa obyektiv səbəbdən bu rolunu yerinə yetirə bilmirsə, məncə, təhlükə barədə xəbərdarlıq edərək BMT Təhlükəsizlik Şurasına müraciət etməlidir".

Paşinyan həmçinin qeyd edib ki, onun Rusiya sülhməramlılarına və onların fəaliyyətinə qarşı qərəzli mövqeyi yoxdur.

***Ağarza Elçinoğlu***

## Seysmologiya üzrə kadrlara ehtiyac var - İsa Həbibbəyli

***Türkiyədə baş vermiş zəlzələdən sonra apardığımız təhlillər zamanı ölkəmizdə seysmologiya üzrə ixtisaslaşdırılmış kadrlara ehtiyac olduğunu müəyyən etmişik.***

"Unikal" xəbər verir ki, bunu Azərbaycan Milli Elmlər Akademiyasının Prezidenti İsa Həbibbəyli AMEA-nın Ümumi yığıncağında çıxışı zamanı deyib.

O bildirib ki, ölkənin ali təhsil sistemində və digər elmi qurumlarında magistr, fəlsəfə doktorluğu, elmlər doktorluğu üzrə seysmologiya sahəsində boşluqlar var.

"Seysmologiya üzrə yüksək elmi dərəcəli kadrların hazırlanması istiqamətində yüksək dairələrlə danışıqlar apararaq razılığa gəlmişik",- deyə akademik qeyd edib.

## Vüqar Qurbanovdan vəfat edən direktorun yerinə təyinat

***Suraxanı Tibb Mərkəzinə yeni direktor təyin edilib.***

"Unikal"ın əldə etdiyi məlumata görə, bununla bağlı TƏBİB-in icraçı direktoru Vüqar Qurbanov əmr imzalayıb.

Əmrə əsasən, Aybəniz Sanıyeva Suraxanı Tibb Mərkəzinin direktoru vəzifəsinə təyinat alıb.

Qeyd edək ki, Suraxanı Tibb Mərkəzinin sabiq direktoru Azər Məmmədov fevral ayının 12-də dünyasını dəyişib.

***Murad İbrahimli***

# Səlim Müslümovla Ənvər Seyidəliyev arasında gözlənilməz ixtilaf

## Sabiq nazirlə onun dayısı olan keçmiş icra başçısı nəyi bölüşə bilmirlər?

***Azərbaycanın keçmiş nazirlərindən biri ilə sabiq icra başçısı arasında narazılıq yaranıb. Bu ixtilafı maraqlı edən ən mühüm detal isə onların yaxın qohum olmalarıdır. Belə ki, iddialara görə, keçmiş əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümovla onun dayısı - Ağsu Rayon İcra Hakimiyyətinin eks-başçısı Ənvər Seyidəliyev küsüşüblər. Qohumların inciklik yaşamasına isə əmlak məsələləri səbəb olub.***

Yayılan iddialara görə, problem ötən ilin avqustunda Müslümovun bir neçə milyonluq manat dəyərində daşınmaz əmlakı üzərinə məhkəmə qərarı ilə həbs qoyulmasından sonra başlayıb. Həmin əmlakların bəziləri: Bakı şəhəri, Binəqədi rayonu, Ak. Ziya Bünyatov pr. ev 13 v, mənzil 38; Bakı şəhəri, Binəqədi rayonu, Ak. Ziya Bünyatov prospekti 7 a, mənzil 3; Bakı şəhəri, Səbail rayonu, Azadlıq prospekti 5 ünvanda yerləşən qeyri-yaşayış sahəsi; Bakı şəhəri, Yasamal rayonu, Mirzə İbrahimov küçəsi, 422 məhəllə, ev 53, mənzil 108; Bakı şəhəri, Nərimanov rayonu, Oqtay Kərimov küçəsi, ev 69 və 71; Bakı şəhəri, Nərimanov rayonu, Məmməd Araz küçəsi, ev 51; Bakı şəhəri, Binəqədi rayonu, 6-cı mikrorayonun qərb hissəsində yerləşən 500 və 300 kv.metr torpaq sahələri; Bakı şəhəri, Xətai rayonu, Rəsul Rza küçəsi, məhəllə 2942 ünvanda yerləşən 300 kv.m olan qeyri yaşayış sahəsi...

Bundan sonra Müslümov məhz onun dəstəyilə Ağsu rayonuna icra başçısı təyinatı alan dayısına xəbər yollayaraq düşdüyü vəziyyətdən çıxması üçün dəstək istəyib. Lakin Seyidəliyevdən aldığı kömək eks-naziri qane eləməyib və onların arasında soyuqluq yaranmağa başlayıb.

İddialara görə, sabiq əmək və əhalinin sosial-müdafiəsi naziri təkcə dayısının icra başçısı təyinatında mühüm rol oynamayıb. Eyni zamanda onun ailə biznesi qurmasında da gizli-aşkar rol oynayıb. Nəticədə Ə.Seyidəliyev qısa zamanda Azərbaycanın ən varlı icra başçılarından birinə çevrilib. Hətta iş o yerə çatıb ki, eks-icra başçısı sabiq nəqliyyat naziri Ziya Məmmədovla da biznes əlaqələri (ortaqlığı) qurub.

Müslümovun nazir olmasından maksimum faydalanan Ə.Seyidəliyev vəzifədə olarkən mətbuatda Ağsu şəhərinin və kəndlərinin abadlaşdırılması, həmçinin, yolların yenidən çəkilməsi üçün dövlət tərəfindən ayrılan vəsaitin böyük qisminin mənimsənilməsində, bu işlərin icra olunması üçün maliyyə vəsaitini ayrı-ayrı vəzifəli şəxslərdən və sahibkarlardan toplanmasında, rayon ərazisindəki əkin üçün yararlı olan torpaq sahələrinin zəbt edilməsində günahlandırılırdı. Biz hələ onun öz əkin sahələrində rayon camaatını qəpik-quruşa işlətməsini, hətta bir çox hallarda zəhmət haqqını verməməsini demirik.

Günlərin bir günündə vəziyyət 180 dərəcə dəyişdi: S.Müslümov 2021-ci ilin fevralında Dövlət Təhlükəsizliyi Xidmətinin keçirdiyi əməliyyat zamanı saxlanıldı. Aparılan yoxlamalar zamanı onun həmin nazirliyin müxtəlif ərazi şöbələrinin rəhbərlərinin hər birindən 10 mindən 30 min manatadək külli miqdarda təkrar rüşvət almasına əsaslı şübhələr müəyyən edildi. Nəticədə isə Cinayət Məcəlləsinin 308.2-ci (ağır nəticələrə səbəb olan vəzifə səlahiyyətlərindən sui-istifadə), 311.3.2-ci və 311.3.3-cü maddələri (təkrar külli miqdarda rüşvət alma) ilə təqsirləndirilən şəxs qismində məsuliyyətə cəlb olunaraq barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçildi. Sonradan ev dustaqlığına buraxılsa da eks-nazir, yuxarıda vurğuladığımız kimi, əmlakının mühüm qismindən məhrum oldu.

Lakin Müslümovu bütün bunlar baş verərkən ən çox incidən dayısı Ə.Seyidəliyevin özünü "sudan quru çıxarmaq" məqsədilə səssiz, sakit hücrəyə çəkilməsidir. Halbuki, sabiq nazir ondan ciddi dəstək gözləyirmiş. Bununla belə,Seyidəliyev bacısı oğlunun aqibətindən çəkinərək "gözə gəlməməyi" və mümkün olduğu qədər kölgədə qalmağı üstün tutub. 1989-2003-cü illərdə Ağsu rayon Maddi-Texniki Təchizat və Mexanikləşdirmə İstehsalat Birliyinin müdiri vəzifəsində çalışan dayı 2007-ci ildə gözlənilmədən icra başçısı təyin olunmasında Müslümovun rolunu xeyli dərəcədə unudub.



Unudub və yekunda Müslümovun ona qarşı küsgünlüyü yaranıb.

O da maraqlıdır ki, ötən ilin yayında yayılan istintaq materiallarında sabiq nazirin çoxsaylı əmlaklarından birini məhz dayısı Ə.Seyidəliyevin oğlu Dəyanət Seyidəliyevin adına rəsmiləşdirdiyi deyilirdi. Söhbət Ağsu şəhərində yerləşən 8 hektar ərazidə qurulmuş "Ağsu Aqrotexservis" ASC-ya aid istixanadan (dəyəri: 1.500.000 manat) gedir.

Bütün bunların müqabilində Müslümov uzun zaman susqunluq nümayiş etdirib. Lakin indi, xüsusilə əmlakları üzərinə həbs qoyulduqdan sonra keçmiş nazir başda dayısı olmaqla, vəzifədə olarkən himayə elədiyi, müxtəlif vəzifələrə gətirdiyi yaxınlarından incikdir. Başda Ə.Seyidəliyev olmaqla üzlərinə karyera qapısı açdığı yaxınlarından yetərincə dəstək almadığını düşünür. Hesab edir ki, "ağ günə çıxardığı" yaxın ətrafından bu dar gündə kömək istəməyə haqqı çatır.

Həmin "yaxın ətraf" isə Müslümov vəzifədə olduğu müddətdə ədə etdiklərini qoruyub saxlamağı daha çox düşünür. İndi Səlim müəllim bu mənzərəni görərək əsəbləşməsin neyləsin?!...

***Sənan Mirzə***

# Ermənistan rəhbərliyi sülhdən yayınmaq üçün yeni üsullar arayır

## Elxan Şahinoğlu: "Görünür, Paşinyan beynəlxalq təşkilatlara göndərdikləri şikayətlərin sayını artırmaqla Azərbaycan üzərində üstünlük qazanacağını düşünür"

***Son günlər Rusiyanın Qarabağ ərazisindəki hərbi kontingentinin davranışları, bədniyyətli və üstüörtülü mesajlar diqqətdən yayınmır. Paralel olaraq, Ermənistan baş naziri Paşinyanın müxtəlif istiqamətli bəyanatları. Ermənilərin Hadruta, hətta Şuşaya qaytarılması ilə bağlı çıxışları ciddi mətləblərdən xəbər verir.***

Bu barədə fikirlərini "Unikal"la bölüşən politoloq Elxan Şahinoğlu bildirib ki, Rusiya hərbi kontingentinin Qarabağda rus sərkərdələrinə abidələrin qoyulması, Xocalıdakı qərargah otaqlarında divarlara sovet generallarının portretlərinin yapışdırılması, Şuşa ətrafındakı yollarda keçmiş SSRİ-nin bayraqlarının dalğalanması ideyası Kreml sahibi Vladimir Putinin



şəxsi əmriylə əlaqəlidir: "Bunların müəllifi odur. Rusiya prezidenti simvollara diqqət yetirən siyasətçidir. O keçmiş illərdə qonaqlarını Kreml sarayının o otaqlarında qəbul edirdi ki, həmin otaqdakı heykəl və ya şəkil xarici həmkarına Rusiya imperiyasının həmin dövlət üzərindəki qələbəsini xatırlatsın. Əslində bu şəkildə "qəbul" qonağını aşağılamaq mənası daşıyırdı. İşğal altındakı Xocalıda rus sərkərdələrinə büstlərin qoyulması da Putinin şəxsi təşəbbüsüdür. Ukraynada işğalçı müharibə vasitəsilə keçmiş imperiya sərhədlərini bərpa etməyi planlaşdıran şəxsin başqa ərazilərə də baxışı eynidir. Rusiya hərbi kontingentini Qarabağdan yola saldıqdan və torpaqlarımızın qalan hissəsini azad etdikdən sonra rus sərkərdəsi Aleksandr Nevskinin və digərlərinin Xocalıda büstlərinə ehtiyac qalmayacaq".

Müsahibimiz digər bir məqama da toxunub. O bildirib ki, Ermənistanda son günlər ən çox cavab axtarılan suallardan biri Paşinyanın açıqlamalarındakı mesajlardır: "Onları narahat edən sual budur ki, Baş nazir Nikol Paşinyan son mətbuat konfransında "orduda hələ də 5-ci kolon mövcuddur" cümləsi ilə nə demək istəyib?". Ermənistan ordusunda "5-ci kolon" nə ABŞ-a, nə də hansısa Avropa ölkəsinə aiddir. Paşinyan "orduda 5-ci kolon var" dedikdə birmənalı şəkildə Rusiyanın agentura şəbəkəsini və bu şəbəkəyə bağlı erməni generalları nəzərdə tutub. Nikol Paşinyan "5-ci kolon" ifadəsiylə özünü gələcək məğlubiyyətlərdən sığortalamaq istəyir. Yəni demək istəyir ki, "mən Azərbaycana qarşı bacardığım qədər müqavimət göstərirəm, ordu bacarıqsızdırsa bu mənlik deyil". Paşinyan anlayır ki, Azərbaycan Laçın yolunda nəzarət-buraxılış məntəqəsi yaradacaq və Ermənistan ordusu bunun qarşısını ala bilməyəcək. Paşinyanın Rusiyaya ümidi yoxdur, ancaq Qərbdən də istədiyi təhlükəsizlik təminatını ala bilməyib. ABŞ, Avropa İttifaqı və ya Fransa Azərbaycanı durdura bilməyəcək".

Politoloq onu da qeyd edib ki, Nikol Paşinyanın İkinci Qarabağ müharibəsindən sonra ilk dəfə ermənilərin Şuşa və Hadruta qayıtması mövzusuna toxunması da təsadüfi deyil: "Paşinyan xarici işlər naziri Ararat Mirzoyana tapşırıb ki, bu məsələni BMT-nin qaçqınlar komissarı qarşısında qaldırsın. Paşinyan bununla nəyə nail olmaq istəyir? Görünür, Ermənistanın baş naziri beynəlxalq təşkilatlara göndərdikləri şikayətlərin sayını artırmaqla Azərbaycan üzərində üstünlük qazanacağını düşünür. Paşinyanın iddiasının qarşılığında Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov da BMT-nin qaçqınlar komissarı qarşısında azərbaycanlıların qovulduqları Xocalıya, Şuşanın kəndlərinə, Xankəndinə və Qarabağın digər məntəqələrinə qaytıması məsələsini qaldırmalıdır".

E.Şahinoğlunun sözlərinə görə, bütün bunlar onu göstərir ki, Paşinyan sülh sazişini imzalamağa hazır deyil: "Ermənistanın baş naziri Nikol Paşinyan martın 14-də İrəvanda keçirdiyi mətbuat konfransında deyib ki, sülh sazişi ilə bağlı Bakıya göndərdikləri təkliflərə cavab alıblar. Paşinyan Bakının cavabında sülh sazişinin imzalanması üçün irəliləyiş olduğunu desə də, əlavəsini unutmayıb: "Daha çox irəlilədikcə fundamental problemlərin sayı artır". Nikol Paşinyan "fundamental problemlər" dedikdə nələri nəzərdə tutub? Birincisi, Paşinyan Bakıdan aldığı cavabdan bu qənaətə gəlib ki, Azərbaycan sülh sazişi vasitəsilə Ermənistana qarşı ərazi iddialarını reallaşdırmaq istəyir. İkincisi, Nikol Paşinyan hesab edir ki, Azərbaycan Ermənistanla sülh sazişi vasitəsilə "Dağlıq Qarabağda etnik təmizləmə mandatı" əldə etmək istəyir. Yəni Paşinyan demək istəyir ki, Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tanıyarsa, Qarabağda ermənilərin kütləvi köçü həyata keçiriləcək və bu halda İrəvan buna mane ola bilməyəcək. Üçüncüsü, Nikol Paşinyan Azərbaycanla sülh sazişi imzalayacağı halda bunun yerinə yetiriləcəyinə dair təminat tələb edib, bunsuz sənədin işlək olmayacağını bildirib və misal olaraq Azərbaycanın 2020-ci ilin 10 noyabr bəyanatına əks olaraq yolun "bağlandığını" göstərib. Paşinyan sülh sazişinə beynəlxalq təminat istəyir. Belə bir təminat Azərbaycanın maraqlarına zidd deyil, sadəcə Ermənistanla sülh sazişi 2020-ci il 10 noyabr üçtərəfli bəyanatından fərqli olacaq. Dördüncüsü, Nikol Paşinyan Dağlıq Qarabağ ermənilərinin hüquq və təhlükəsizliklərinin İrəvan üçün ilkin əhəmiyyət daşıdığını vurğulayıb. Belə çıxır ki, Paşinyan sənəddə Qarabağla bağlı müddəanın əks olunması fikrindən imtina etməyib. Bu Azərbaycanın maraqlarına ziddir. Beləliklə, İkinci Qarabağ müharibəsi Nikol Paşinyana dərs olmayıb. Paşinyan sülh sazişini imzalamağa hazır deyil, vaxtı uzatmağa çalışır. Ancaq Ermənistanın baş naziri vaxtı uzadarkən bölgədə müharibə riskinin artdığını da etiraf edib".

***Z.Məmmədli***



# Ərdoğanın prezidentliya namizədliyi irəli sürüldü

***AK Partiya Parlament Qrupu Rəcəb Tayyib Ərdoğanın prezidentliyə namizədi qrup qərarı verib.***

"Unikal" xəbər verir ki, bu barədə "Anadolu" Agentliyi məlumat yayıb.

Qeyd edək ki, Türkiyədə növbəti prezident və parlament seçkiləri bu il mayın 14-də keçiriləcək. Müxalifət düşərgəsinin seçkilərdə vahid namizədi CHP lideri Kamal Kılıcdaroğlu olacaq.

# AMEA-nın Nizamnamə Komissiyasının sədri dəyişdi

***AMEA-nın Nizamnamə Komissiyasının sədri dəyişib.***

"Unikal" xəbər verir ki, komissiyanın yeni sədri AMEA-nın I vitse-prezidenti Arif Həşimov seçilib. Həmçinin komissiyanın tərkibi təsdiqlənib.

Qeyd edək ki, 2013-cü ildən bəri komissiyaya İsa Həbibbəyli rəhbərlik edib.

# Rüşvətlə yararsız hərbi bilet verən polkovniklə bağlı yeni qərar

***Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Sabunçu rayon idarəsinin sabiq rəisi, polkovnik Rövşən Babayevin cəzası azaldılıb.***



"Unikal" xəbər verir ki, bu barədə qərar Bakı Apellyasiya Məhkəməsində hakim İlqar Murquzovun sədrliyi ilə keçirilən iclasda elan olunub.

Qərara əsasən, Rövşən Babayevin cəzası 4 ildən 3 ilə endirilib. İttihama görə, Rövşən Babayev 2016-2019-cu illərdə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Bakı şəhər Sabunçu rayon idarəsinin rəisi işləyərkən həmin idarənin Həqiqi hərbi xidmətə çağırış şöbəsinin baş zabiti vəzifəsində işləmiş Yaşar Hüseynov, habelə Bakı şəhəri 3 nömrəli Şəhər Klinik Xəstəxanasının tibb işçiləri və digər şəxslərlə qabaqcadan əlbir olan bir qrup şəxs halında 11 nəfər çağırışçının hərbi xidmətə cəlb edilməməsi üçün ümumilikdə onlardan 22 min 800 manat pulu rüşvət qismində tələb edib. Rövşən Babayev, Yaşar Hüseynov və digərləri barəsində Cinayət Məcəlləsinin 311.3.1 (rüşvət alma-qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədildikdə), 311.3.2-ci (rüşvət alma-təkrar törədildikdə) maddələri ilə cinayət işi başlanıb.

Bakı Hərbi Məhkəməsinin hökmü ilə Rövşən Babayevə 4 il, Yaşar Hüseynova 3 il həbs, digər təqsirləndirilən şəxslərə isə sınaq müddəti seçilməklə şərti cəza verilib.

# Dövlət başçıları Ankara bəyannaməsini imzaladılar



***Türk Dövlətləri Təşkilatının Dövlət Başçılarının Fövqəladə Zirvə görüşündə Ankara Bəyannaməsi imzalanıb.***

"Unikal" xəbər verir ki, sənədi türk dövlətlərinin liderləri imzalayıblar.

Qeyd edək ki, Ankarada Türk Dövlətləri Təşkilatının Zirvə Görüşü keçirilib.

# Onlara ali xüsusi rütbələr verildi - SƏRƏNCAM

***Dövlət Miqrasiya Xidmətinin əməkdaşlarına ali xüsusi rütbələr verilib.***



"Unikal" xəbər verir ki, bu barədə Prezident İlham Əliyev Sərəncam imzalayıb.

Sərəncama əsasən, Dövlət Miqrasiya Xidməti rəisinin müavini Elman Məmməd oğlu Əliyevə II dərəcəli dövlət miqrasiya xidməti müşaviri, Bakı şəhər regional miqrasiya baş idarəsinin rəisi İslam Məsum oğlu Ağayevə III dərəcəli dövlət miqrasiya xidməti müşaviri ali xüsusi rütbəsi veriib.

# Növbəti Zirvə görüşü oktyabrda Qazaxıstanda keçiriləcək



***Türk Dövlətləri Təşkilatının (TDT) növbəti Zirvə görüşü bu ilin oktyabr ayında Qazaxıstanda keçiriləcək.***

"Unikal" xəbər verir ki, Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev martın 16-da Ankarada keçirilən Türk Dövlətləri Təşkilatının Dövlət Başçılarının Fövqəladə Zirvə görüşündə çıxışı zamanı deyib.

Onun sözlərinə görə, TDT-nin X sammiti Türküstanda baş tutacaq: "Bu ilin payızında TDT-yə sədrlik Qazaxıstana keçəcək. Bu müddət ərzində bir sıra əlamətdar tədbirlər keçirməyi planlaşdırırıq".

# Şavkat Mirziyoyev İlham Əliyevə təşəkkür etdi

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət Başçılarının Fövqəladə Zirvə görüşü keçirilməsi təklifinə görə ayrıca minnətdarlığımı bildirirəm.***



"Unikal" xəbər verir ki, bunu Özbəkistan Prezidenti Şavkat Mirziyoyev Ankarada keçirilən sammitdəki çıxışında deyib.

"Bugünkü görüşümüz dostluğumuzun və birliyimizin, ən çətin zamanlarda bir-birimiz üçün möhkəm dayaq olduğumuzun əyani və praktik sübutudur", - o deyib.

Qeyd edək ki, martın 16-da Ankarada Türk Dövlətləri Təşkilatının Dövlət Başçılarının Fövqəladə Zirvə görüşü keçirilib. Bu tədbirin Şuşada keçirilməsi nəzərdə tutulmuşdu. Lakin Türkiyədə baş vermiş dəhşətli zəlzələ ilə əlaqədar Prezident İlham Əliyev qardaş ölkəyə dəstək məqsədilə Zirvə görüşünün Ankarada keçirilməsi təklifi ilə çıxış edib. Digər iştirakçı ölkələrin rəhbərləri ilə razılaşdırıldıqdan sonra bununla bağlı müvafiq qərar qəbul olunub. Bu, bir daha Azərbaycan-Türkiyə qardaşlığının, Türk dünyasında qarşılıqlı dəstəyin və hörmətin bariz nümunəsidir.

"Fəlakət - Fövqəlada halların idarə edilməsi və humanitar yardım" mövzusuna həsr olunan Zirvə görüşü Türkiyənin cənub və cənub-şərq bölgələrində baş verən zəlzələ nəticəsində yaranan fövqəladə vəziyyətlə bağlı məsələlərin ən yüksək səviyyədə müzakirə edildiyi platformadır. Liderlər fəlakətlərlə mübarizədə Türk Dövlətləri Təşkilatı daxilində çoxtərəfli sıx əməkdaşlıq və koordinasiya mexanizmlərinin yaradılmasına diqqət çəkib, regionda mövcud çağırışlarla bağlı məsləhətləşmələr aparıblar.

Xatırladaq ki, fevralın 6-da Türkiyənin Kahramanmaraş vilayətinin Pazarcık rayonunda 7,7 bal, Elbistan rayonunda 7,6 bal gücündə iki zəlzələ baş verib. Dərinliyi 7 kilometr olduğu müəyyən edilən zəlzələ Hatay, Qaziantep, Kilis, Osmaniye, Malatya, Adıyaman, Şanlıurfa, Diyarbəkir, Adana və Kahramanmaraş vilayətlərində ciddi dağıntılara səbəb olub. Bundan sonra ölkə ərazisində daha bir neçə zəlzələ baş verib.

# Rəsmi Bakıdan beynəlxalq ictimaiyyətə çağırış

## XİN: "Ermənistandan öhdəliklərini yerinə yetirməsini tələb etməyə çağırırıq"

***"Beynəlxalq ictimaiyyəti Ermənistanın minalar yerləşdirmək siyasətinə göz yummamağa çağırırıq".***



"Unikal"ın xəbərinə görə, bu barədə Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) Ağdamda mina partlayışı nəticəsində mülki şəxslərin həlak olması barədə məlumatında bildirilib.

"16 mart 2023-cü il tarixində Ağdam rayonunda mina partlayışı nəticəsində 2 nəfər dinc sakin həlak olub. Həlak olanların ailələrinə və yaxınlarına dərin hüznlə başsağlığı veririk. Allah rəhmət eləsin! Bununla, 2020-ci ildə 44 günlük Vətən müharibəsindən indiyə qədər ümumilikdə 286 nəfər mina qurbanı olmuş, onlardan 49 nəfər həlak olub. Ağdamda baş verən mina partlayışı bir daha onu göstərir ki, Azərbaycana yararlı və düzgün mina xəritələrini təqdim etməyən, 10 noyabr 2020-ci il tarixli Üçtərəfli bəyanatın 6-cı bəndini kobudcasına pozaraq Azərbaycan ərazisində hərbi fəaliyyəti, minaların daşınmasını və yerləşdirməsini davam etdirən Ermənistanın əsas məqsədi post-münaqişə dövründə aparılan genişmiqyaslı bərpa-quruculuq işlərinə, bu ərazilərdə fəaliyyət göstərən mülki əhaliyə, habelə məcburi köçkünlərin geri qayıtmasına və öz yerlərində dinc yaşamasına maneçilik yaratmaqdır.

Ermənistanın bu addımları regionda sülh, təhlükəsizlik və əməkdaşlığın reallaşdırılmasına başlıca əngəl olmaqda davam edir.

Beynəlxalq ictimaiyyəti Ermənistanın beynəlxalq öhdəliklərini kobud şəkildə pozmasına, o cümlədən məqsədli şəkildə minalar yerləşdirmək siyasətinə göz yummamağa və Ermənistandan beynəlxalq hüquq qarşısında üzərinə götürdüyü öhdəliklərini yerinə yetirməsini tələb etməyə çağırırıq".


Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:1800


# Dövlət Vergi Xidmətindən sahibkarlara xəbərdarlıq

***Martın 27-si və 31-i bir sıra vergi bəyannamələrinin təqdim edilməsi üçün son gündür.***

"Unikal" xəbər verir ki, bu barədə İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin iş adamlarına etdiyi xəbərdarlıqda bildirilir. Qurum bəyan edib ki, martın 27-nə qədər uduşlardan əldə edilən gəlirdən ödəmə mənbəyində tutulan vergi, əlavə dəyər vergisi, aksiz, yol vergisi, mədən vergisi, daşınmaz əmlak üzrə sadələşdirilmiş vergi, pul vəsaitlərinin nağd qaydada çıxarılmasına görə sadələşdirilmiş vergi, martın 31-nə qədər isə gəlir, mənfəət və əmlak vergisi üzrə bəyannamələr təqdim edilməlidir.

Vergi hesabatının vaxtında təqdim edilməməsinə görə 40 manat maliyyə sanksiyası tətbiq edilir.

# Azad olunan ərazilərdə 2026-cı ilədək 34500 evin tikilməsi planlaşdırılır

***Otuz il davam edən işğal zamanı 300-dən çox şəhər və kəndimiz, mədəniyyət və dini obyektlərimiz tamamilə dağıdılıb. Bundan başqa, münaqişəyə məruz qalmış ərazilərin minalarla böyük dərəcədə çirklənməsi, dəqiq mina xəritələrinin olmaması şəhərsalma, reabilitasiya və yenidənqurma işlərinin səmərəli aparılmasına, yüz minlərlə məcburi köçkünün öz doğma yurdlarına qayıtmasına əsas maneə olaraq qalır.***

"Unikal" xəbər verir ki, bunu Şəhərsalma və Arxitektura Komitəsi sədrinin birinci müavini Namiq Hümmətov deyib.

Onun sözlərinə görə, Böyük Qayıdışa dair I Dövlət Proqramı çərçivəsində ilkin mərhələdə bərpa olunacaq 100 yaşayış məntəqəsindən 7 şəhər və 36 qəsəbə-kəndin, ümumilikdə, 43 yaşayış məntəqəsinin ərazi planlaşdırma sənədlərinin hazırlanması işləri başa çatmaq üzrədir: "İlk mərhələdə layihələndirilən bütün qəsəbə və kəndlərin şəhərsalma konsepsiyası məqbul hesab edilib, həmçinin Ağdam rayonunun Xıdırlı, Kəngərli və Sarıcalı, Qubadlı rayonunun Mahruzlu və Zilanlı, Cəbrayıl rayonunun Horovlu və Şükürbəyli, Zəngilanın Məmmədbəyli, Şuşanın Daşaltı kəndlərinin şəhərsalma əsaslandırması təsdiqlənib. Həmin kəndlərin bir çoxunun tikinti layihələrinin işlənilməsinə başlanılıb. Dövlət Proqramına əsasən, əhalinin dayanıqlı şəkildə geri qayıdışının və ərazilərə inteqra-



siyasının təmin edilməsi istiqamətində 2022-2026-cı illərdə 34 min 500 evin tikilməsi və 140 minə yaxın əhalinin köçürülməsi planlaşdırılır. Bu illər ərzində Ağdam rayonu üzrə 9690 evin və mənzilin tikilərək istismara buraxılması, bu evlərə 42361 vətəndaşın köçürülməsi planlaşdırılır".

# Türk Dövlətləri liderləri bir arada: Dünyaya ismarıc

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə martın 16-da Ankarada Türk Dövlətləri Təşkilatının Dövlət Başçılarının Fövqəladə Zirvə görüşü keçirilir.***

"Unikal" xəbər verir ki, dövlətimizin başçısı İlham Əliyev tədbirdə iştirak edib. Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Prezidenti İlham Əliyevi, digər dövlət və hökumət başçılarını qarşılayıb.

Prezident Rəcəb Tayyib Ərdoğan çıxış edərək Türkiyədə baş verən zəlzələdən sonra "Fəlakət - Fövqəladə halların idarə edilməsi və humanitar yardım" mövzusunda Fövqəladə Zirvə görüşünün keçirilməsi təşəbbüsünə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirdi.

Sonra Türk Dövlətləri Təşkilatına sədrlik edən Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev çıxış etdi.

Türkiyədə baş vermiş dağıdıcı zəlzələnin törətdiyi fəsadlar, qardaş ölkəyə edilən humanitar yardımlar barədə videoçarx nümayiş olundu.

Daha sonra Türkmənistan Parlamenti Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov çıxış etdi.

Azərbaycan Prezidenti İlham Əliyev çıxış edib və müxtəlif istiqamətlərdə mühüm məsələlərə toxunub:

- Əziz qardaşım, hörmətli Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğan.Hörmətli dövlət və hökumət başçıları, əziz dostlar. Qardaş Türkiyədə çoxsaylı insanın tələfatına və xəsarət almasına səbəb olan güclü zəlzələnin fəsadları bizi olduqca kədərləndirib. Bu dağıdıcı zəlzələ on minlərlə insanın həyatına son qoyub. Əziz qardaşım, faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, qardaş Türkiyə xalqına Azərbaycan xalqı adından bir daha dərin hüznlə başsağlığı verir, yaralananlara şəfa diləyirəm.

Azərbaycan hökuməti və xalqı zəlzələ baş verən andan qardaş Türkiyəyə humanitar yardımlar etmək üçün səfərbər olmuşdur. Azərbaycandan 940 nəfər, o cümlədən xilasedicilər, tibb personalı və könüllülər zəlzələ bölgəsinə göndərilib. Türkiyəyə göndərilən xilasedicilərin sayına görə Azərbaycan dünya ölkələri arasında birinci olub. Xilasedicilərimizin və həkimlərimizin səyi nəticəsində dağıntılar altından 53 nəfər sağ çıxarılıb. Həmçinin 780 nəfərin cəsədi dağıntılar altında aşkar edilib. Tibb personalımız ümumilikdə 3 mindən artıq şəxsə tibbi xidmət göstərib.

Bu günə qədər 45 milyon ABŞ dollarından artıq vəsait AFAD və digər humanitar qurumların bank hesabına köçürülmüşdür. Bununla yanaşı, qardaş Türkiyəyə 5320 ton humanitar yardım çatdırılmışdır.

Azərbaycan və Türkiyə həm sevincli, həm də kədərli günlərdə daim bir-birinin yanında olmuşdur. Bundan sonra da belə olacaq.

Əminəm ki, əziz qardaşım, hörmətli Prezident Rəcəb Tayyib Ərdoğanın liderliyi sayəsində Türkiyə bu zəlzələnin nəticələrini uğurla aradan qaldıracaqdır.

Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğanın 2020-ci ildə İkinci Qarabağ müharibəsində ilk saatlardan başlayaraq son günə qədər Azərbaycana göstərdiyi siyasi və mənəvi dəstək bizə əlavə güc verdi.

Eyni zamanda, 44 günlük müharibə dövründə bütün Türkiyə xalqı Azərbaycanın yanında idi. Müharibə zamanı və tarixi Zəfərimizdən sonra Türkiyədən minlərlə dəstək və təbrik mesajları gəlmişdir.

2021-ci ilin iyun ayında Qarabağın tacı olan Şuşa şəhərində Türkiyə ilə Azərbaycan arasında Şuşa Bəyannaməsi imzalanmışdır və bizim əlaqələrimiz rəsmən müttəfiqlik səviyyəsinə qaldırılmışdır.

Türkiyə son 20 ildə Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğanın liderliyi ilə böyük və şərəfli yol keçmiş, dünyada söz sahibi olmuş, güc mərkəzinə çevrilmişdir. Bu gün dünyada Türkiyə ilə hesablaşırlar və ona hörmət edirlər.

Türkiyənin hərbi gücünü, müdafiə sənayesi sahəsində böyük uğurlarını indi dünyada hər kəs görür. Bu illər ərzində Türkiyədə davamlı sabitliyin təmin olunması, ölkənin inkişafı bütün Türk dünyası üçün önəmli şərtdir.

2022-ci ildə Türk Dövlətləri Təşkilatının Səmərqənddə keçirilmiş Zirvə görüşündə Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğanın Türk Dünyasının Ali Ordeni ilə təltif edilməsi onun Türk dünyasının gücləndirilməsində böyük xidmətlərini bir daha sübut edir. Əminəm ki, əziz qardaşım bundan sonra da uzun illər ölkələrimiz arasındakı qardaşlıq əsasında qurulmuş əlaqələrin daha da möhkəmləndirilməsinə böyük töhfələr verəcəkdir.

Əziz dostlar, 30 illik işğal dövründə yüzlərlə şəhər və kəndimiz, tarixi və dini abidələr, qəbiristanlıqlar Ermənistan tərəfindən məqsədli şəkildə dağıdılmışdır. Yerlə-yeksan edilən Ağdam şəhərini xarici ekspertlər "Qafqazın Hirosiması" adlandırırlar. Qarabağ və Şərqi Zəngəzurda 67 məsciddən 65-i ermənilər tərəfindən dağıdılıb, qalan ikisindən isə donuz və inək tövləsi kimi istifadə edilib.



Təbii sərvətlərimiz talanıb, ətraf mühitə ciddi zərər vurulub.

Birinci Qarabağ müharibəsi nəticəsində 4 minə yaxın vətəndaşımız itkin düşmüşdür. Onların demək olar ki, hamısı işgəncələrə məruz qalaraq qətlə yetirilib. Torpaqlarımız azad edildikdən sonra bir neçə yerdə kütləvi məzarlıq aşkar etmişik. Ermənistan hələ də azərbaycanlı itkinlərin taleyi barədə məlumat verməkdən yayınır.

Ermənistanın işğalına görə Azərbaycan dünyada mina ilə ən çox çirkləndirilmiş ölkələr arasındadır. İkinci Qarabağ müharibəsindən sonra, yəni 2020-ci ilin noyabr ayından bəri 300-ə yaxın azərbaycanlı mina partlayışı nəticəsində həlak olmuş və ya ağır yaralanmışdır.

2022-ci ildə Praqa və Soçidə Ermənistanın Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tanımasına baxmayaraq, hələ də öz qoşunlarını tam olaraq Azərbaycan ərazilərindən çıxarmamışdır. Qarabağda qanunsuz erməni dəstələri və kriminal ünsürlər qalmaqdadır.

Ermənistan həm də Zəngəzur dəhlizinin açılması öhdəliyindən yayınır.

Beləliklə, Ermənistan 2020-ci il noyabrın 10-da imzalanmış Bəyanatı kobudcasına pozur və buna görə məsuliyyət daşımalıdır.

2020-ci ildə Qarabağın və Şərqi Zəngəzurun Ermənistan işğalından azad olunmasından sonra Azərbaycan bu ərazilərdə genişmiqyaslı yenidənqurma işləri aparır. Azərbaycan Ermənistan tərəfindən tamamilə dağıdılmış böyük ərazilərə həyatı yenidən qaytarır. Biz sıfırdan 9 yeni şəhər və birinci mərhələdə 300-dən çox kənd və qəsəbə qururuq.

Bu, milli hökumət tərəfindən postmünaqişə dövründə öz maliyyə resursları hesabına həyata keçirilən nadir və misligörünməmiş bir yenidənqurma modelidir.

Keçmiş məcburi köçkünlərin öz doğma yurdlarına dönüşü üçün "Böyük Qayıdış" proqramının icrasına başlamışıq.

Yenidənqurma prosesində Türkiyə şirkətləri podratçı kimi bir çox infrastruktur layihələrində fəal iştirak edirlər. Bu günə qədər Türkiyə şirkətləri ilə imzalanmış kontraktların dəyəri 3 milyard ABŞ dollarından çoxdur. Əziz qardaşım Rəcəb Tayyib Ərdoğan azad edilmiş torpaqlara üç dəfə səfər edib, Şuşa, Füzuli, Zəngilan və Cəbrayıla gedib.

Fürsətdən istifadə edərək, işğaldan azad edilmiş Füzuli rayonunda Özbəkistan tərəfindən tikilən məktəbə və Qazaxıstan tərəfindən inşa olunan yaradıcılıq mərkəzinə görə Özbəkistan Prezidenti Şavkat Mirziyoyevə və Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevə minnətdarlığımı bildirirəm.

Eyni zamanda bildirmək istəyirəm ki, bu yaxınlarda Azərbaycan-Özbəkistan İnvestisiya Fondu və Azərbaycan-Qırğız İnkişaf Fondu yaradılmışdır.

Hörmətli həmkarlar, Türk dünyası türk dövlətlərinin hüdudları ilə məhdudlaşmır. Türk dünyası daha böyük coğrafiyanı əhatə edir. Dünyada yaşayan azərbaycanlıların sayı 50 milyondan çoxdur. Onlardan cəmi 10 milyonu müstəqil Azərbaycan Respublikasında yaşayır.

Tarixi torpağımız olan Qərbi Zəngəzurun 1920-ci ilin noyabr ayında sovet hökumətinin qərarı ilə Azərbaycandan ayrılıb Ermənistana verilməsi Türk dünyasının coğrafi cəhətdən ayrılmasına səbəb olmuşdur. 1991-ci ilə qədər bütün azərbaycanlılar indiki Ermənistan ərazisindən zorla qovulmuşdur. Ermənistan Qarabağda və Şərqi Zəngəzurda olduğu kimi, indiki Ermənistan ərazisində, yəni, Qərbi Azərbaycanda da mədəni irsimizi, məscidləri, tarixi abidələrimizi dağıtmışdır. Azərbaycan ictimaiyyəti dəfələrlə UNESCO-ya indiki Ermənistanda Azərbaycan xalqının mədəni irsinin monitorinq edilməsi məqsədilə bu ölkəyə faktaraşdırıcı missiyanın göndərilməsi xahişi ilə müraciət etmişdir və UNESCO-dan müsbət cavab gözləyir.

Qərbi Azərbaycanda etnik təmizləməyə məruz qalan həmvətənlərimiz indi Qərbi Azərbaycan İcmasında birləşiblər. Onlar tarixi torpaqlara sülh yolu ilə qayıdışı qarşılarına məqsəd qoyublar. Qərbi Azərbaycan İcmasının hazırladığı Qayıdış Konsepsiyasına əsasən, indiki Ermənistan ərazisindən zorla deportasiya olunmuş azərbaycanlıların öz yurdlarına qayıdışı üçün müvafiq verifikasiya və zəmanət mexanizmi olan və hüquqi baxımdan məcburi olan beynəlxalq razılaşma əldə edilməlidir.

Biz Azərbaycan dövləti olaraq Qarabağda yaşayan erməni sakinlərin fərdi hüquq və təhlükəsizliyini təmin edəcəyimiz kimi, Ermənistan da qarşılıqlı prinsipi əsasında Qərbi azərbaycanlıların hüquq və təhlükəsizliyini təmin etməlidir.

Diqqətə görə təşəkkür edirəm.

# “Əmlakların sənədləşməsini kortəbii şəkildə həyata keçirmək düzgün olmaz”

## Kamran Bayramov: “Əgər Şəhərsalma və Tikinti Məcəlləsinə mütərəqqi dəyişikliklər edilirsə, sənədsiz evlərin sənədləşdirilməsi ilə də bağlı işlər davam etdiriləcək”



***Milli Məclisin Regional məsələlər komitəsinin üzvü, deputat Kamran Bayramov ”Unikal”a müsahibə verib. O, Şəhərsalma və Tikinti Məcəlləsinə təklif olunan dəyişikliklərin əhəmiyyətindən, bu dəyişikliklərin vətəndaşlara faydasından və sənədsiz evlərin sənədləşdirilməsi istiqamətində hansı addımların atılacağından danışıb.***

***-Kamran müəllim, parlamentin iki komitəsində Şəhərsalma və Tikinti Məcəlləsinə təklif olunan dəyişikliklər müzakirə olunub. Qarşıdakı dönəmdə plenar iclasda müzakirəyə çıxarılacaq. Təklif edilən dəyişikliklərin vətəndaşlar üçün hansı faydası olacaq?***

-Şəhərsalma və Tikinti Məcəlləsinə çoxsaylı dəyişikliklərin olmasa nəzərdə tutulur. Bu layihələr vətəndaşların yaşayış səviyyəsinin və sosial rifahının yüksəldilməsinə, mənzil-məişət şəraitinin yaxşılaşdırılmasına yönəldilib. Bu, dövlət siyasəti çərçivəsində atılan sistemli addımlardan biridir. Son illər ölkəmizdə iqtisadiyyatın bütün sahələrində, xüsusilə, inşaat sektorunda çox böyük işlər görülür və inkişaf müşahidə olunur. Şəhərsalma və tikinti sahələrinə böyük həcmdə investisiyalar yatırılır və bu baxımdan, iqtisadiyyatımızın önəmli hissəsi sayılır. Bu sahə ilə bağlı müəyyən problemlər də mövcud idi. Ötən müddət ərzində bəzi tikinti obyektlərində işlər şəhərsalma qaydalarına və qanunvericiliyə riayət olunmadan, sənədləşdirilmə lazımi qaydada aparılmadan həyata keçirilirdi. Bununla da vətəndaşlarımızın hüquq və mənafelərinə müəyyən zərər dəyirdi. Məcəlləyə əsasən tikintiyə icazə icraatı və tikintiyə dövlət nəzarətinin həyata keçirilməsi ilə bağlı müddəalar daxil edilir. Tikintiyə icazə icraatının optimallaşdırılması, bu prosesin şəffaf və vətəndaş məmnunluğu baxımından təkmilləşdirilməsi nəzərdə tutulur. Burada vətəndaşlarımız üçün maraqlı olan tikintisinə icazə tələb olunmayan tikinti obyektlərinin dairəsinin dəqiqləşdirilməsi məsələsi var. Eyni zamanda, tikintiyə dövlət nəzarətini həyata keçirən orqanların daha təkmil qaydada nəzarəti həyata keçirməsi, xüsusilə, yazılı göstərişlər vasitəsilə tikinti işlərinin dayandırılması səlahiyyətinin genişləndirilməsi nəzərdə tutulur. Bu da qanunsuz tikintilərin qarşısının alınması məqsədilə edilir. Həmçinin, tikinti obyektlərinin sökülməsi və istismara icazə verilməsi ilə əlaqəli olan bəzi məsələlər tənzimlənir.

***-Qanunsuz tikintilərlə bağlı məsələyə toxundunuz. Son illər belə tikintilərin sayında azalma varmı, yoxsa eyni tendensiya müşahidə olunurmu?***

-Təbii ki, qanunsuz tikintilər var. Bunu inkar edə bilmərik. İndiki dövrü əvvəlki müddətlə müqayisə etsək, belə tikintilər azdır. Bütün bu məsələlər Şəhərsalma və Tikinti Məcəlləsi ilə tənzimlənir. Məcəllə təkmilləşərkən bu məsələyə də diqqət yetirilir. Məcəlləyə təklif olunan yeni dəyişikliklər də qanunsuz tikililərin qarşısının alınması baxımından önəmlidir. Tikinti işlərinin dayandırılmasına əsas verən hallar dəqiqləşdirilir, pozuntuların aradan qaldırılması üçün verilən müddət 1 ildən 6 aya endirilir. Bu da tikintini həyata keçirən qurumun, şəxsin məsuliyyətinin daha da artırılmasına xidmət edir. Dəyişikliklər ona dəlalət edir ki, gələcəkdə hər hansı hüquqi və ya fiziki şəxs tikinti həyata keçirən zaman 10 dəfə ölçüb-biçdikdən sonra bu işləri aparmağa başlayacaq. Bu məsələlər dövlət səviyyəsində daha dəqiq tənzimlənəcək. Gələcəkdə tikintiyə və istismara icazələrin alınması ilə bağlı məsələlər daha təkmil formada öz həllini tapacaq. İnsanların narazılığı azalacaq, vətəndaş məmnunluğu artacaq.

***-Qaldırdığınız məsələlərdən biri də sənədsiz evlərlə bağlıdır. Bu dəyişikliklərin sənədsiz evlərin sənədləşdirilməsi istiqamətində nə kimi köməkliyi olacaq?***

-Etiraf etməliyik ki, həm Bakıda, həm də rayonlarda sənədsiz evlərin sayı çoxdur. Dəfələrlə bununla bağlı məsələlər qaldırılıb, müzakirələr aparılıb. Hökumət tərəfindən də bu istiqamətdə müəyyən işlər görülüb. İqtisadiyyat Nazirliyi sənədsiz evlərin siyahıya alınmasına start verib və bu iş indi də davam etdirilir. Əvvəl bununla bağlı deyirdik ki, həmin mülklərə dair əmlak amnistiyası elan olunmalıdır. O baxımdan ki, bütün evlər sənədləşdirilsin. İndi isə düşünürük ki, bu, mərhələli şəkildə olmalıdır. Sənədsiz evlərin müəyyən bir hissəsinin sənədləşdirilməsi prosesinin sadələşdirilməsi nəzərdə tutulmuşdu. Bu, mərhələli olmalıdır. Bunu birdən-birə kortəbii şəkildə həyata keçirmək düzgün olmaz. Bu prosesdə müəyyən qanun pozuntularına yol vermiş olarıq. Tədricən bu məsələ də öz həllini tapacaq. Əgər Şəhərsalma və Tikinti Məcəlləsinə mütərəqqi dəyişikliklər edilirsə, sənədsiz evlərin sənədləşdirilməsi ilə də bağlı işlər davam etdiriləcək. Hökumətin addımları da bundan xəbər verir. Bakı şəhərində azı yarım milyona yaxın sənədsiz ev var və bunun da əksəriyyətinin tikinti icazəsi yoxdur. Onlara birdən-birə sənəd versək qanun pozmuş olarıq. Burada təhlükəsizlik, tikinti normalarına uyğunluq məsələləri var. Bu məsələlər tənzimləndikdən sonra bütün sənədsiz evlərin sənədləşdirilməsindən danışa bilərik. Hazırda siyahıya alınma olmalıdır. Bilinməlidir ki, həmin evlər hansı müddətdə tikinti normalarına və şəhərsalma qaydalarına uyğun tikilib. Tikinti və təhlükəsizlik normalarına uyğun tikilməmiş evlərə necə mülkiyyət sənədini vermək olar? Dövlət bunun üçün məsuliyyət daşıyacaq. Heç bir yoxlama aparmadan, təhlükəsizlik məsələlərinə baxmadan bunu etmək olmaz. Bu gələcəkdə fəsad törədə bilər. Vətəndaşın təhlükəsizliyi, hüquqları nəzərə alınmalı və qorunmalıdır. Siyahıya alınma prosesi ondan xəbər verir ki, müəyyən müddətdən sonra sənədsiz evlər məsələsi öz həllini tapacaq. Bu məsələdə bir çox incəliklər və həssas məsələlər var. Onlar da öz həllini tapmalıdır. Qanunvericiliyə edilmiş dəyişikliyə əsasən, onların müəyyən növlərinə sənədlərin verilməsinə başlanılıb. Müəyyən təhlil və araşdırmalar aparıldıqdan sonra evlərin sənədləşdirilməsi davam etdiriləcək. Gələcəkdə həm vətəndaşlar, həm də tikinti şirkətləri tərəfindən bu pozuntulara yol verilməli deyil. Hər kəs görür ki, bu böyük problemlərə gətirib çıxarır. Tikintidən əvvəl qanunvericiliyə uyğun addımlar atılmalıdır ki, vətəndaş gələcəkdə əmlakına mülkiyyət sənədi ala bilsin.

***-Bu günlərdə parlamentin Aqrar siyasət komitəsinin iclasında bəzi deputat həmkarlarınız pay torpaqları ilə bağlı problemlərin olduğunu bildirdilər. Bu istiqamətdə hansı addımlar atılmalıdır?***

-Vaxtilə torpaq islahatı həyata keçirilib. Kolxoz və sovxozların torpaqları vətəndaşlar arasında pay torpağı formasında bölünüb. Həmin vaxt torpaq islahat komissiyaları fəaliyyət göstərirdi, bələdiyyələr mövcud deyildi. Torpaqlar özəl mülkiyyətə verilmişdi. Vətəndaşların bəziləri bu torpaqlardan istifadə edib, digərləri isə satıblar və yaxud ev tikiblər. Vaxtilə bununla bağlı müəyyən problemlər olub. Bu baxımdan, vətəndaşların şikayəti varsa, araşdırılmalıdır. Bir çox hallarda vətəndaşlar həmin pay torpaqlarını satıblar. Artıq torpaq islahatı gedib və paylanılıb. Əgər o torpaqlar qanunsuz əllərindən alınıbsa, vaxtilə onlara verilməyibsə, bununla bağlı müvafiq hüquqi prosedurlar var. Vətəndaşın hər hansı bir narazılığı varsa, bununla bağlı məhkəməyə müraciət edə bilər. Burada digər bir məsələ də var ki, torpaq fondu azalmaqdadır. Əhali artır, onların da mənzil-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində işlər getməlidir. Bilirsiniz ki, bələdiyyələrin fiziki şəxslər üçün fərdi yaşayış evlərinin tikintisinə torpaq ayırmaq hüququ var. Amma bir çox rayonlarda bələdiyyənin fondunda olan torpaqlar azalıb və bəlkə də yoxdur. Bu da böyük problemdir. Bələdiyyə torpaqları üzərində mülkiyyət hüququnun tanınması, xəritələrin verilməsi məsələsi də olduqca vacibdir. Bilinməlidir ki, hansı torpaqlar bələdiyyə mülkiyyətinə, hansılar isə özəl mülkiyyətə aiddir.

***Anar Kəlbiyev***

# Cahangir Əsgərovun “böyük uğurunun” pərdəarxası

## Necə oldu ki, AZAL ilk dəfə bir ili xalis mənfəətlə başa vurdu?

***Bu günlərdə bəzi KİV-lər məlumat yaydılar ki, 2022-ci il AZAL üçün ötən illərə nisbətən daha müsbət bir il kimi qiymətləndirilir: çünki pandemiyadan əvvəlki göstəricilərə nail olunub, sərnişin daşımaları artıb, uçuş coğrafiyası genişləndirilib. Belə nəticəyə isə “Azərbaycan Hava Yolları” Qapalı Səhmdar Cəmiyyətinin birinci vitse-prezidenti Samir Rzayevin müsahibəsində açıqladığı rəqəmlərdən sonra gəlinib. Həmin müsahibədə o qeyd edib ki, 2022-ci ilin maliyyə yekunları ilə bağlı ən vacib məsələlərdən biri də beynəlxalq maliyyə standartlarına əsasən ilkin nəticələrə görə AZAL-ın tarixində ilk dəfə olaraq ötən ili xalis mənfəətlə başa vurmasıdır: “Hədəfimiz də elə bu tendensiyanı qoruyub saxlamaq və davam etdirməkdir”.***



“Azərbaycan Hava Yolları”nın nəhayət ki, bir ili xalis mənfəətlə başa vurması, əlbəttə, sevindiricidir. Unutmayaq ki, aylar öncə, daha dəqiq desək, ötən ilin mayında AZAL ilk dəfə olaraq maliyyə hesabatını rəsmi olaraq açıqlamışdı. Hesabatdan aydın olurdu ki, indiyədək 2019 və 2020-ci illər üzrə audit edilmiş hesabatlar (Deloitte & Tuoche) əlçatandır və həmin hesabatlara əsasən, ötən ilin əvvəlində AZAL-ın zərəri (1 milyard 764 milyon manat) aviaşirkətin aktivlərinin nə az, nə çox düz 90%-ni təşkil edib! Üstəlik,

2020-ci ildə KOVID-19 koronavirus pandemiyası ilə əlaqədar milli aviadaşıyıcının birbaşa gəlirləri 1 milyard 8,4 min manatdan (593,1 milyon dollar) 335,2 milyon manata (197,1 milyon dollar) qədər azalıb. Pandemiya ilə bağlı itkiləri kompensasiya etmək üçün hökumət il ərzində aviaşirkətə ümumilikdə 232 milyon manatdan çox subsidiya ödəyib.

Bununla yanaşı, 2020-ci il üçün AZAL-ın əməliyyat xərcləri 540 milyon manatı (317,6 milyon dollar) ötüb.

Maliyyə xərcləri, məzənnə fərqləri, eləcə də hesablanmış mənfəət vergisi nəzərə alınmaqla, aviaşirkətin 2020-ci il üçün zərəri əvvəlki illə müqayisədə 3% az olmaqla 76,4 milyon manat təşkil edib. 2021-ci il yanvarın 1-nə AZAL-ın öhdəlikləri 2 milyard 758 milyon manat təşkil edib, bu da onun aktivlərindən 39,4% çoxdur. Borc portfelində kreditlər və maliyyə lizinqi üzrə borclar isə 2,5 milyard manatdan artıqdır!

Bütün bunlar da azmış kimi, aviaşirkətin mənfi kapitalı 780 milyon manata çatır.

Bir sözlə, hesabatdan görünür ki, Cahangir Əsgərovun rəhbərliyi altında AZAL-ın illərdən bəridir doğru idarə edilmədiyi, nəticədə borc batağlığına sürükləndiyi, dövlət büdcəsi üzərində ağır yükə çevrildiyi bir daha təsdiqini tapırdı.

O da təsdiqlənirdi ki, cəmiyyət və media uzun illərdən bəridir bu sualın cavabını axtarmaqda haqlıdır: inhisarçı şirkət olmasına, dövlətdən kifayət qədər dotasiya almasına, təyyarə biletlərini kifayət qədər baha, fantastik qiymətə satmasına baxmayaraq necə olur ki, AZAL ilbəil zərər edir? Və necə olur ki, AZAL hər il zərər etdiyi, borclarını artırdığı halda, bu qurumun rəhbərinin ailə üzvləri öz biznesini böyüdürlər, həm ölkə daxilində, həm də ölkə xaricində ciddi kapital tələb edən sərmayələrə yönəldirlər? Axı həmin sərmayələrin qaynağı nədir?! Bu suallar cavabsız qalmağa davam edir. Lakin indi - “Azərbaycan Hava Yolları”nın nəhayət ki, bir ili xalis mənfəətlə başa vurması fonunda yeni suallar da yaranır. Məsələn, Cahangir Əsgərov deyə bilərmi ki, qazanılan bu böyük uğurda Azərbaycan vətəndaşlarının, az qala, dünyanın ən bahalı təyyarə biletləri olmasının rolu nə qədərdir? Yaxud, AZAL-da Müşahidə Şurası yaradılmasaydı, adıçəkilən QSC ötən ili yenə mənfəətlə başa vuracaqdımı?

Unutmayaq ki, uzun zamandır müstəqil ekspertlərdən, kütləvi informasiya vasitələrinə, millət vəkillərindən sadə vətəndaşlaradək hər kəs “Azərbaycan Hava Yolları”nın fəaliyyəti ilə bağlı iki məqamı xüsusi qabardırlar. Birinci, sözügedən qurumda qeyri-şəffaflıq hökm sürür, hesabatlılıq zəifdir, nəticədə gəlirlər nəinki xərcləri qarşılamır, üstəlik, borca meydan açır. İkinci, AZAL doğru idarə edilmir. Müasir idarəçilik prinsiplərindən uzaqdır, bu halda da nəticə dəyişmir: gəlirlərin xərcləri ödəməməsi azmış kimi rəqəmlərlə ifadəsi ağır borclara gətirib çıxarır.

Nəzərə alsaq ki, “Azərbaycan Hava Yolları”nın rəhbərliyi dəyişməyib, Cahangir Əsgərov hələ də kreslosundadır və ənənəvi iş prinsiplərinə sadiqdir, onda ortaya aydın bir həqiqət çıxır: AZAL axır ki, bir ili mənfəətlə başa vurubsa, burada onun hətta qonşu ölkələrlə müqayisədə belə bir neçə dəfə baha qiymətə bilet satmasının, eyni zamanda iki il öncə yaradılan Müşahidə Şurasının rolu danılmazdır.

Uzun sözün qısası, ümid Cahangir müəllimin özünə, iş prinsiplərinə qalsaydı, “Azərbaycan Hava Yolları” kim bilir, 2022-ci ili hansı fantastik zərərlə başa vuracaqdı?!

***Sənan Mirzə***

# Deputatlar Qazaxıstanda parlament seçkilərini izləyəcək



***Milli Məclisin bir qrup deputatı Qazaxıstan parlamentinə keçiriləcək seçkiləri müşahidə etmək üçün martın 16-da bu ölkənin paytaxtı Astana şəhərinə səfər edəcək.***

Milli Məclisdən verilən xəbərə görə, deputatlar Cavanşir Feyziyev və Hikmət Məmmədov Türk Dövlətləri Parlament Assambleyası (TÜRKPA) xətti ilə, İqbal Məmmədov və Rüfət Quliyev isə Müstəqil Dövlətlər Birliyi Parlamentlərarası Assambleyası (MDB PA) xətti ilə martın 19-da keçiriləcək növbədənkənar parlament seçkilərini müşahidə edəcəklər.

Millət vəkilləri beynəlxalq müşahidəçilər qismində seçkilərə hazırlıqla tanış olacaqlar və seçki günü məntəqələrdə prosesin gedişini, vətəndaşların fəallığını izləyəcəklər.

Səfər martın 21-də başa çatacaq.

# “Azərbaycan BMT-nin dəstəyini yüksək qiymətləndirir” - Nazir



***“Azərbaycandan başqa Qafqazda heç bir ölkə hələ də BMT-nin Avropa İqtisadi Komissiyasının Su Konvensiyasına qoşulmayıb”.***

“Unikal” xəbər verir ki, bunu ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev Ağdamda keçirilən Azərbaycan-BMT tərəfdaşlığı üzrə yüksək səviyyəli strateji məsləhətləşmələr zamanı deyib.

O söyləyib ki, bu Konvensiya region ölkələrinin transsərhəd su problemlərinin həlli istiqamətində səylərini birləşdirərək səmərəli əməkdaşlıq edə biləcəyi yeganə mövcud platformadır.

# Nazir alimlərin maaşının artmasından danışdı

***Azərbaycanda hər il dövlət müəssisələrində çalışanların maaşı 10-15 faiz artılır.***

“Unikal” xəbər verir ki, bunu elm və təhsil naziri Emin Əmrullayev AMEA-nın Ümumi yığıncağında deyib. Nazirin fikrincə, alimlərin maaşının artması üçün ölçülə bilən nəticələr olmalıdır. ”Ali məktəblərin elmi tədqiqat universitetləri ilə əməkdaşlığına gəlincə, bayramdan sonra bu istiqamətdə geniş iclas keçirəcəyik. Maliyyələşmə ortada hansısa bir iş olmasına görə həyata keçiriləcək. Məsələn, ortaq magistr proqramı buna aid ola bilər”, - deyə E.Əmrullayev qeyd edib.

# Bakıda qətlə yetirilən şəxs Vətən müharibəsi iştirakçısı imiş

***Dövlət Sərhəd Xidməti (DSX) kafedə qətlə yetirilən əməkdaşı barədə məlumat yayıb.***

”Unikal” xəbər verir ki, məlumatda deyilir: Mart ayının 16-da saat 00:30 radələrində Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçusu baş gizir Vəliyev Cəsarət Baxış oğlu xidmətdən sonra baş vermiş hadisə nəticəsində vəfat edib.

Baş Gizir Cəsarət Vəliyev 44 günlük Vətən müharibəsində və 12-14 sentyabr Ermənistanın genişmiqyaslı təxribatlarının qarşısının alınması zamanı döyüş əməliyyatlarında şəxsi igidlik və şücaət nümayiş etdirərək “İgidliyə görə”, “Cəbrayılın azad olunmasına görə” və Zəngilanın azad olunmasına görə” medalları ilə təltif edilib.

Baş vermiş hadisə ilə əlaqədar Azərbaycan Respublikasının Baş Prokurorluğu və Daxili İşlər Nazirliyi tərəfindən Dövlət Sərhəd Xidməti ilə əlaqəli şəkildə istintaq-əməliyyat tədbirləri həyata keçirilir. Dövlət Sərhəd Xidmətinin rəhbərliyi vəfat etmiş hərbi qulluqçunun ailəsinə və yaxınlarına dərin hüznlə baş sağlığı verir.




# Buraxılış imtahanlarının sualları ilə bağlı rəsmi açıqlama

***Dövlət İmtahan Mərkəzi şagird və abituriyentlərə müraciət edib.***

DİM-dən "Unikal"a verilən məlumata görə, müraciətdə deyilir: "Son günlər 5 və 12 mart tarixlərində keçirilmiş tam orta təhsil səviyyəsi üzrə buraxılış imtahanlarından sonra sosial şəbəkələr və ictimaiyyət arasında müəyyən müzakirələr aparılır. Buraxılış imtahanları iştirakçıların əhatə dairəsinə görə ən kütləvi imtahanlar hesab olunur, həmçinin imtahanların nəticələri orta məktəbdə təhsil alan şagirdlərin yekun attestasiyası, ali və orta ixtisas təhsili müəssisələrinə qəbul zamanı nəzərə alınır. Bu baxımdan imtahanlara marağın yüksək olması və müzakirələrin aparılması başadüşüləndir və Dövlət İmtahan Mərkəzi tərəfindən anlayışla qarşılanır. Lakin müəyyən məqamları bir daha imtahan iştirakçılarının diqqətinə çatdırmaq istəyirik. Tam orta təhsil səviyyəsi üzrə buraxılış imtahanlarına daxil olan fənlərin proqramı 5-11-ci siniflərdə tədris olunan mövzuları əhatə edir. 11-ci sinifdə fevral ayından sonra keçirilən mövzular imtahanda istifadə olunmur. Buraxılış imtahanlarında istifadə edilən bütün test tapşırıqları ümumtəhsil müəssisələrində qüvvədə olun dərsliklər əsasında hazırlanır və müvafiq fənlər üzrə təhsil proqramı - kurikulumun təlim nəticələrinə uyğun bilik və bacarıqları yoxlamağa xidmət edir.

Məlumat üçün bildiririk ki, respublikamızın təhsil sistemində 2008-ci ildən etibarən yeni təhsil proqramları (kurikulumları) tətbiq olunur. Təhsilin məzmunu dəyişərək "yaddaş məktəbi"ndən "təfəkkür məktəbi"nə keçilib. Bu isə o deməkdir ki, tədris prosesində məqsəd təkcə biliklərin verilməsi deyil, bacarıqların da formalaşdırılması olmalıdır. Bu əsas götürülərək buraxılış imtahanlarında Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə birgə hazırlanmış imtahan modeli tətbiq olunur. Yəni imtahanda qapalı tipli tapşırıqlarla yanaşı, ətraflı yazılı cavab tələb edən tapşırıqlardan da istifadə olunur. Bu tapşırıqlar meyarlar əsasında qiymətləndirilir və bu imtahan iştirakçılarının bilik və bacarıqlarının daha dəqiq müəyyən olunmasına imkan verir. Onu da bildiririk ki, belə tapşırıqlar aşağı siniflərdən başlayaraq dərsliklərdə istifadə olunur.

Yuxarıda qeyd olunanlara uyğun olaraq 11-ci siniflər üçün buraxılış imtahanı artıq beşinci ildir ki, yeni model əsasında keçirilir və bu imtahanlar layihələndirilərkən həm orta məktəblərdə keçirilən monitorinq imtahanlarının, həm də son dörd ildə keçirilən buraxılış imtahanlarının elmi-statistik göstəricilərinə aid təhlillərdən də istifadə edilir. Bu təhlillər isə onu göstərir ki, imtahanla bağlı göstəricilər müxtəlif hazırlıq səviyyəsinə malik şagirdlərdən gözlənilən nəticələrə uyğundur və bu baxımdan illər üzrə göstəricilər bir-birinə çox yaxındır. Müqayisə üçün 2019-2022-ci illərdə keçirilən buraxılış imtahanlarında iştirak edən orta statistik şagirdlərin topladıqları ümumi balları da təqdim etmək istəyirik. Buraxılış imtahanında iştirak edən orta statistik şagird 2019-cu ildə 112.78, 2020-ci ildə 115.82, 2021-ci ildə 115.93, 2022-ci ildə isə 111.72 bal toplayıb.

Bu il keçirilən imtahanlarda istifadə edilən tapşırıqlar da iştirakçıların cavablarının statistik təhlili əsasında bir daha araşdırılacaq və bu təhlil əsasında müvafiq məlumatlar ictimaiyyətə təqdim olunacaq. Bundan əlavə, hamıya məlumdur ki, DİM tərəfindən aparılan təhlillər nəticəsində testlərdə hər hansı uyğunsuzluq aşkar olunarsa, imtahan iştirakçılarının xeyrinə qərar qəbul olunur. Həmçinin yazılı cavab tələb edən tapşırıqların qiymətləndirilməsi məqsədilə seçilmiş yazı işləri nümunəsi əsasında meyarlar dəqiqləşdirilərək ehtiyac yarandığı təqdirdə onlarda müvafiq düzəlişlər edilir. Nəticələr elan olunduqdan sonra iştirakçıların müraciətlərinə baxılması üçün apellyasiya komissiyası da yaradılır.

Əlavə olaraq qeyd etmək istəyirik ki, 17 mart 2023-cü il tarixində Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Mələykə Abbaszadə ali təhsil müəssisələrinə sənəd qəbulunun başa çatması, onun statistikası və buraxılış imtahanlarının gedişatına həsr olunmuş mətbuat konfransı keçirəcək".

# Bəzi rektorların kefinə doğranan "soğan"...

## Universitetlərdə dövlət imtahanının ləğvi kimləri və niyə məyus edib?

***Bu günlərdə Elm və Təhsil Nazirliyinin Elm sektorunun müdiri Turxan Süleyman bildirdi ki, Azərbaycanın ali təhsil müəssisələrində dövlət imtahanı ləğv olunub. Sitat: "Yeni təhsil standartında dövlət imtahanı deyilən anlayış yoxdur. Bu il ali təhsil müəssisələrinin I və II kursunda təhsil alanlar ali məktəbi bitirdikdə dövlət imtahanı verməyəcəklər. Dövlət imtahanı verənlər köhnə standartla təhsil alanlardır".***

Qeyd edək ki, bu gün bir sıra düya ölkələrinin ali təhsil sistemində dövlət imtahanı deyə bir anlayış yoxdur. Ölkəmizin ali təhsil ocaqlarında isə uzun illərdir ki, dövlət imtahanı tətbiq edilir. Əksəriyyət bunu sovetdənqalma təcrübə kimi qiymətləndirirdi və belə hesab edilirdi ki, həmin təcrübə yalnız universitetlərdə rüşvət mexanizminin "işləməsinə" yol açır, vəssalam!

Uzağa getməyək, ötən ilin yayında Azərbaycan ali və orta ixtisas təhsil müəssisələrində buraxılış kursunda olan tələbələr dövlət imtahanının keçirilməsi ilə bağlı haqlı etiraz etmişdilər. Səbəb dərslərin 3 semestr distant, bir semestr isə hibrid formada keçirilməsi idi. Tələbələr bildirirdilər ki, pandemiya səbəbindən dərslər 3 semestr distant, bir semestr hibrid formada keçirilib. Buna baxmayaraq, onlar dövlət imtahanı verməlidirlər. Bu düzgün qərar deyil.

Həmin vaxt yerli media, eləcə də tələbələrin özləri sosial şəbəkələrdə dövlət imtahanı üçün bəzi ali məktəblərdə fantastik məbləğdə rüşvət tələb olunduğunu vurğulayırdılar - birində 3 min manat, digərində 5 min manat, başqa birində daha çox...

Qısası, dövlət imtahanı dedikdə çoxluğun yadına yalnız rüşvət düşür. Dövlət imtahanı əksəriyyət üçün rüşvət sözünün sinoniminə çevrilib. Elə təhsil ekspertlərinin çoxu da oxşar qənaətdədirlər. Məsələn, onlardan biri - təhsil üzrə ekspert Kamran Əsədovun fikrincə, dövlət imtahanı anlayışı məzmun baxımından mənasızdır. Sitat: "Dövlət imtahanı ali təhsilin özünün-özünə etibarsızlığını göstərir. Çünki dövlət imtahanı tələbənin 4 il ərzində keçdiyi fənlərdən təkrar imtahan verməsidir. Onsuz da I, II, III kursda oxuyanda o fənlərdən imtahan vermişəmsə, təkrar niyə o fənlərdən imtahan verməliyəm? Məzmun baxımından bu, absurd idi. Biz bir neçə il öncə bu barədə təkliflər verdik, Naizrlər Kabineti bu barədə qərar qəbul etdi. Hazırda I, II, III kursda oxuyanlar dövlət imtahanı verməyəcəklər. Yalnız hazırda IV, qiyabidə V kursda oxuyanlar dövlət imtahanı verəcəklər. Ondan sonra isə yalnız diplom işi yazacaqlar. Yəni ali təhsili başa vurmaq haqqında, təhsil müddətində bilik və bacarıqları əks etdirən mövzular üzrə diplom işi yazacaqlar. Bir sözlə, dövlət imtahanı artıq Azərbaycan ali təhsil sistemində yoxdur. Ümumiyyətlə, dünyanın heç bir ölkəsində dövlət imtahanı yoxdur. Dövlət imtahanı əsasən də rüşvət, korrupsiya kimi neqativ hallara şərait yaradırdı..."



Onu da vurğulamaq lazımdır ki, uzun illərdir hər kəs sual edirdi: Azərbaycan təhsildə Boloniya sisteminə keçibsə, sovetizmin qalığı olan dövlət imtahanı niyə yaşamalıdır? Üstəlik, hamı bilirdi ki, dövlət imtahanı xüsusilə universitet rəhbərliyi üçün qeyri-qanuni gəlir mənbəyi idi. Tələbə 5 il müddətində hər il 2 dəfə olmaqla və hər dəfə 6-7 imtahan verirsə, bu, 5 il ərzində azı 50-60 imtahan deməkdir. Bütün bunlardan sonra yekun olaraq dövlət imtahanı verməyin nə mənası vardı? Bu, potensial rüşvət obyekti idi və yalnız ali məktəb rəhbərlərinin şəxsi maraqlarına xidmət edirdi. Maraqlıdır ki, uzun müddət Təhsil Nazirliyi də bu mənasız və məntiqsiz, eyni zamanda zərərli sovet təcrübəsinin aradan qaldırılmasında hər hansı təşəbbüskarlıq göstərmirdi. Belə iddia edilirdi ki, dövlət imtahanlarından yalnız bəzi rektorların deyil, nazirliyin yüksək vəzifəli şəxslərinin də cibinə pullar axır. Bir az da dəqiqləşdirsək, ali məktəb rəhbərləri dövlət imtahanında yığılan rüşvətdən onlara da "pay" ayırır.

Yaxşı haldır ki, sonda sağlam məntiq qalib gəldi, universitetlərimiz daha bir rüşvət metodundan qurtuldular. Lakin onu da əminliklə demək olar ki, bəzi ali məktəb rəhbərləri məlum qərardan heç də məmnun deyillər. Nazirlər Kabinetinin məlum qərarının onların kefinə əməllicə "soğan doğradığı-na" şübhə yoxdur. Niyə? Fikrimizcə, bu sualın cavabı hər kəsə gün kimi aydındır. Kim bir dövlət imtahanında tələbədən alacağı bir neçə min manatdan məhrum olmaq istəyər ki?!

Sonda ümid edək ki, Azərbaycan təhsilindən rüşvətin, korrupsiyanın ayağı biryolluq kəsiləcək. Ölkəmizin parlaq gələcəyi həm də bundan asılıdır!

***Toğrul Əliyev***

# Elmar Məmmədyarovdan növbəti qalmaqallı çıxış

## Həftənin sualı: sabiq nazirin "paxıllığını çəkənlər" kimlərdir?

***Sabiq xarici işlər naziri Elmar Məmmədyarov uzun aradan sonra geniş müsahibə verib. Lakin bu müsahibəyə cəmiyyətin marağı böyük olmadı. Səbəbi anlaşılandır - Məmmədyarov postunu kifayət qədər neqativ səbəblərlə itirmişdi. Həmin səbəblər arasında "Tovuz döyüşləri" zamanı evdən işləməsini söyləyib işə çıxmamasından tutmuş rəhbəri olduğu nazirlikdə keçirilən antikorrupsiya əməliyyatında aşkarlanan yeyinti, rüşvət faktları xüsusi yer tuturdu. Nəticədə Elmar müəllimin ictimaiyyət arasında onsuz da zəif olan nüfuzu tamamilə sarsıldı.***



Bir halda ki, eks-nazirin geniş müsahibəsi cəmiyyətdə hər hansı reaksiya doğurmadı, bəs onda biz niyə bu sətirləri yazırıq? İş orasındadır ki, Məmmədyarov sözügedən müsahibədə onun Azərbaycan dilində danışığı ilə bağlı tənqidlərə maraqlı şərh verib - guya həmin tənqidlər ona paxıllıqdan irəli gəlirmiş.

Əcəb məntiqdir, illər uzunu XİN kimi önəmli bir qurumun başında durasan, həmin müddətdə doğma dilində nitq vərdişlərini inkişaf etdirməyəsən, sonra da ictimaiyyətin bununla bağlı tənqidlərini, qınaqlarını, iradlarını "paxıllıq çəkmək" kimi qiymətləndirəsən!

Bu gün Azərbaycanda hansısa futbol klubunun xaricdən aldığı oyunçu belə bəlli bir müddət sonra öz fikirlərini dilimizdə ifadə etməyi öyrənir. Hətta bir çoxları Azərbaycan dilində Məmmədyarovdan belə daha yaxşı danışırlar. Elmar müəllim isə barı nazir olduqdan sonra ana dilində danışıq bacarıqlarını inkişaf etdirmək ehtiyacı hiss etməyib. İndi isə bunu matah bir şey kimi qələmə verir. Sabiq nazir deyə bilərmi ki, bir azərbaycanlının öz ana dilində sözlərin qol-qıçını sındıraraq danışmasının niyə paxıllığını çəkməliyik? Bəyəm bu qəhrəmanlıqdır? Bəyəm bu fövqəlistedaddır? Bəyəm bu xüsusi bacarıqdır? Bəyəm bu yaxşı bir şeydir? Axı o şeyin paxıllığını çəkərlər, o şeyə qibtə eləyərlər ki, müsbət nəsnədir, gözəldir, möhtəşəmdir. Yoxsa, Elmar müəllim doğma dilimizdə danışmağı məhz sadaladığımız xüsusiyyətlərdən biri kimi qiymətləndirir?! Elə isə deməyə sözümüz qalmır.

Yeri gəlsə, məsələ eks-nazirin Azərbaycan dilində düzəməlli danışa bilməməsində də deyil. Ölkənin taleyüklü anlarında xarici işlər naziri kimi önəmli post tutub, lakin işə çıxmayan, üstəlik, bu absurdla kifayətlənməyib "evdən işləyirəm" kimi gülünc bəhanə icad edən bir nəfərin cəmiyyət nə üçün paxıllığını çəkməlidir?

Rəhbərliyi dövründə Xarici İşlər Nazirliyi kimi strateji bir qurumun korrupsiya bataqlığına çevrilməsinə ya göz yuman, ya da "yaşıl işıq" yandıran bir nəfərin paxıllığını kim və hansı məntiqlə çəkə bilər axı? Elmar müəllim inciməsin, belə bir ayıbın paxıllığı çəkilməz, belə bir ayıba görə yalnız utanmaq mümkündür. Bəlkə, biz Məmmədyarovun ona görə paxıllığını çəkirik ki, vəzifədə olarkən nazir maaşı ilə (!) oğlu Eminin adına ABŞ-da, Nyu-Yorkun bahalı hissələrindən birində 4,2 mln. dollardan bir qədər çox nağd pul ödəməklə iki mənzil almaq fərasəti göstərib? Bəlkə, biz illik maaşı ən yaxşı halda 30 min manat olduğu halda həmin 4,2 mln. dolları necə əldə etdiyi barədə haqlı suallara verdiyi "şəxsi işimdir, heç kimə dəxli yoxdur" kimi absurd, anormal cavabına görə sabiq nazirin paxıllığını çəkməliyik? Əgər Məmmədyarov həqiqətən belə düşünürsə, yenə də deməyə sözümüz qalmır. Sadəcə, onun XİN kimi önəmli bir quruma uzun illər boyunca rəhbərlik etməsinə növbəti dəfə təəssüflənə bilərik.

Və sonda: Azərbaycanda keçmiş nazirlərin tez-tez mətbuat qarşısına çıxması nadir hadisədir. Elmar müəllim bu məsələdə də istisna təşkil etməyə başlayıb. Bir müddətdir ki, o, KİV-ə qısa açıqlamalar verməkdədir. Artıq geniş müsahibələrə də start verib. Məmmədyarovun buna niyə ehtiyac duyduğunu bilmirik. Bilmək heç vacib də deyil.

Sadəcə, eks-nazirə bir tövsiyəmiz var - bir halda ki, mediaya mütəmadi danışmaq niyyətindədir, qoy onda oxucular bir yana, söylədiklərini qələmə alan müxbirlərə, dilüslub xətalarını düzəldən redaktorlara Elmar müəllimin yazığı gəlsin, barı bundan sonra ana dilində nitq bacarığını inkişaf etdirsin...

***Sənan Mirzə***

# Naxçıvanda nazir işdən çıxarıldı




***Xəbər verdiyimiz kimi, Naxçıvan Muxtar Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri Nicat Babayev vəzifəsindən azad olunub.***

"Unikal"ın məlumatına görə, işdən çıxarılan Nicat Babayev həmin qurumda nazir müavini vəzifəsinə təyin edilib.

C.Cəlilov 1987-ci ildə Naxçıvan Muxtar Respublikasının Şahbuz şəhərində anadan olub.

2009-cu ildə Azərbaycan Dövlət İqtisad Universitetinin Beynəlxalq iqtisadi münasibətlər ixtisası üzrə bakalavr, 2012-ci ildə Azərbaycan Dövlət İqtisad Universitetinin eyni ixtisası üzə magistratura, 2013-cü ildə isə Böyük Britaniya Krallığının Esseks Universitetinin Maliyyə ixtisası üzrə magistratura səviyyəsini bitirib. Hazırda İmtiyazlı İdarəedici Mühasiblər İnstitutunda (CIMA) Strateji idarəetmə səviyyəsi üzrə təhsilini davam etdirir.

2011-2013-cü illərdə Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin (indiki İqtisadiyyat Nazirliyi) Beynəlxalq Təşkilatlarla əməkdaşlıq şöbəsində, 2013-2021-ci illər ərzində BP Caspian şirkətinin Maliyyə departamentində müxtəlif vəzifələrdə çalışıb.

1 mart 2021-ci il tarixində Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin İdarə Heyətinin sədrinin müşaviri vəzifəsinə, 13 avqust 2021-ci il tarixində isə İdarə Heyəti sədrinin müavini vəzifəsinə təyin edilib.

Evlidir, bir övladı var.

# Hərbi hissələrin döyüşə hazırolma vəziyyəti yoxlanıldı



***Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi 2023-cü il üçün döyüş hazırlığı planına əsasən, Azərbaycan Ordusunun bir neçə hərbi hissəsində bölmələrin döyüşə hazırolma vəziyyəti yoxlanılıb.***

Bu barədə "Unikal"a Müdafiə Nazirliyindən məlumat verilib. Yoxlamanın başlanması ilə əlaqədar olaraq döyüş bayrağı sıra meydanına gətirilib. Xalqımızın ümummilli lideri Heydər Əliyevin, Azərbaycanın suverenliyi, müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Hərbi orkestrin müşayiəti ilə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Hərbi hissələrdə sıra baxışları keçirilib, maddi-tədris bazaları, şəxsi heyətin silah və döyüş təchizatı, eləcə də hərbi qulluqçuların fərdi hazırlığı yoxlanılıb.

Yoxlamanın yekun nəticələrinə əsasən döyüş hazırlığında fərqlənən bölmələrin mükafatlandırılması mərasimi keçirilib.

Mərasimdə bölmələrin döyüş qabiliyyətinin daha da yüksəldilməsi, komandir heyətinin bilik və bacarıqlarının təkmilləşdirilməsi, silahlanmaya yeni qəbul edilən silah, texnika və cihazların imkanlarının öyrənilməsi, təlimlərin real döyüş şəraitinə uyğun keçirilməsi, həmçinin bayram günlərində ayıq-sayıqlığın artırılması ilə əlaqədar müdafiə nazirinin tapşırıqları müvafiq olaraq çatdırılıb.

Sonda nümunəvi döyüş hazırlığı məşğələsi nümayiş olunub, hərbi xidmətdə fərqlənən bir qrup hərbi qulluqçuya qiymətli hədiyyə və fəxri fərmanlar təqdim edilib.

# Bu yolda hərəkət məhdudlaşdırılacaq

***Bakı şəhəri, Nəsimi rayonu Alı Mustafayev küçəsində (3-cü mkrn dairəsi) yerləşən yol ötürücüsündə aparılacaq təmir işləri ilə əlaqədar olaraq Ziya Bünyadov prospektindən 20 Yanvar dairəsi istiqamətində (yalnız yolötürücüsü üzərində) avtonəqliyyat vasitələrinin hərəkəti məhdudlaşdırılacaq.***

"Azərbaycan Avtomobil Yolları" Dövlət Agentliyindən "Unikal"a verilən məlumata görə, sözügedən yolötürücüsü üzərində hərəkət intensivliyi nəzərə alınaraq məhdudlaşma qeyri iş günlərində, mart ayının 24-ü səhər saat 6:00-dan 25-i gecə saat 24:00-dək tətbiq ediləcək.

Qeyd olunan müddət ərzində sürücülər Ziya Bünyadov prospektindən 20 Yanvar dairəsi istiqamətində yan yoldan istifadə edərək hərəkətlərinə davam edə bilərlər.

# Talış kəndinə ilk köç başladı



***Talış kəndinə böyük qayıdış gününə həsr olunmuş tədbir start götürüb.***

“Unikal” xəbər verir ki, Tərtər rayon bayraq meydanında təşkil olunan tədbirdə köç etməyə hazırlaşan ailələr, Talış-Suqovuşan istiqamətində aparılan hərbi əməliyyatlarda qazı olmuş hərbi qulluqçular və ictimaiyyət nümayəndələri iştirak edir. Bayram əhval-ruhiyyəsi ilə başlanan tədbirdə əlamətdar günü vətənpərvərlik ruhunda ifa olunan musiqi nömrələri müşayət edir.

Qeyd edək böyük qayıdış zamanı 90 nəfərdən ibarət 20 ailə Talış kəndinə yola düşəcək. Köç iki mərhələdə həyata keçiriləcək. Hər mərhələdə on ailə öz doğma yurduna dönəcək.

Qeyd edək ki, köçürülən keçmiş məcburi köçkünlərin böyük qismi daha ağır şəraitdə yaşayanlardır. Müvafiq qurumlar tərəfindən sakinlər peşə ixtisaslarına və bacarıqlarına uyğun şəkildə işlə təmin ediləcəklər. Onlar müxtəlif dövlət qurumlarında, ictimai iaşə obyektlərində, tikinti şirkətlərində, tikiş fabrikində və s. çalışacaqlar. Köçürülmüş əhali üçün bütün infrastruktur şərait - məktəb, bağça, bank, poçt, ictimai iaşə obyektləri və s. mövcuddur. Köç prosesinin növbəti aylarda da davam etməsi planlaşdırılır.

# Narkotiklə bağlı 1194 nəfər saxlanıldı



***Bu ilin iki ayında narkotiklə bağlı cinayət məsuliyyətinə 1194 nəfər cəlb edilib.***

”Unikal” xəbər verir ki, bu barədə Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının hesabatında məlumat verilib.

Qeyd edilib ki, onlardan 20 nəfəri xarici ölkə vətəndaşları olub. Cinayət məsuliyyətinə cəlb edilmiş 20 nəfər xarici ölkə vətəndaşından 10-u İran İslam Respublikası, 6-sı Türkiyə, 2-si Rusiya Federasiyası, 2-si Gürcüstan vətəndaşı olub.

Xarici ölkə vətəndaşlarından ümumilikdə 32 kq 459,853 qr müxtəlif növ narkotik vasitə və psixotrop maddələr götürülüb.

# Xaçmazda Aqrar İnnovasiya Festivalı keçirildi

***Kənd Təsərrüfatı Nazirliyinin Aqrar İnnovasiya Mərkəzinin təşkilatçılığı ilə sayca 15-ci Aqrar İnnovasiya Festivalı Xaçmaz rayonunda keçirilib.***

“Unikal” xəbər verir ki, festivalda Kənd Təsərrüfatı Nazirliyinin Elmi-Tədqiqat İnstitutları, “Aqroservis” ASC, Aqrar Xidmətlər Agentliyi, Aqrar Kredit və İnkişaf Agentliyi, Aqrar Sığorta Fondu, Süni Mayalandırma Mərkəzi, Dövlət Toxum Fondu və digər tabeli qurumlar, həmçinin aqrar sahənin müxtəlif istiqamətləri üzrə fəaliyyət göstərən 60-dan çox yerli və xarici şirkət, fermerlər iştirak ediblər.

Tədbirdə çıxış edən Xaçmaz RİH başçısı Elnur Rzayev və Kənd Təsərrüfatı Nazirliyinin Aparat rəhbəri Rafail Quliyev regionlarda təşkil edilən belə festivalların əhəmiyyəti barədə danışıblar. Aqrar İnnovasiya Mərkəzinin direktoru Anar Cəfərov “Agroinnofest” layihəsinin təqdimatı ilə çıxış edib, festival barədə ətraflı məlumat verib.

Xaçmaz Olimpiya İdman Kompleksinin ərazisində təşkil edilən festivalda müxtəlif innovativ məhsul və avadanlıqların əyani nümayişi keçirilib. Festivalda bölgənin aqrar potensialının və perspektivinin müəyyən olunması və bölgəyə uyğun kənd təsərrüfatı sahələrinin inkişafı ilə bağlı aqrar sahədə ixtisaslaşmış iri şirkətlər öz uğurlu təcrübələrini, habelə təsərrüfatlarında tətbiq etdikləri innovativ texnologiyalar ilə bağlı məlumatları fermerlərlə bölüşüb.



***Azərbaycanda fəaliyyət göstərən özəl klinikalarla bağlı qalmaqallı xəbərlərin, ictimaiyyətdə şok effekti doğuran iddiaların ardı arası kəsilmir. İndi də məlum olub ki, cəmiyyətimiz daha bir eybəcərliklə üzüzədir. Sosial şəbəkələrdə açıq-aşkar döl üçün “SPERM” və “FOLEKUL” alverinin elanları paylaşılır. Bu barədə sosioloq Lalə Mehralı yerli KİV-ə, konkret olaraq “Bizim media”ya danışıb.***

# Azərbaycandakı özəl klinikalarla bağlı növbəti şok iddia

## Sosial şəbəkə reklamlarında qadınlara 10 gün ərzində 500-800 manat qarşılığında folekul donor olmaq təklif edilir? - Tükürpədici təfərrüat...




O deyib ki, həmin işlə məşğul olan həkimlərin sosial şəbəkədəki reklamlarında qadınlara 10 gün ərzində 500-800 manat qarşılığında folekul donor olmaq təklif edilir. Hətta bunun üçün açıq şəkildə donorluğa uyğun olan kriteriyalar da göstərilir. Yəni ailə klinikaya gəlir, ya ataya, ya da anaya oxşar bir donordan folekul, ya da sperma götürülməsini tələb edir, bunun müqabilində böyük məbləğdə pul ödəyir. Həkim də pasiyentlərinə oxşayan donor ovuna çıxır. Doğulacaq uşaq valideynlərdən birinə bənzəməlidir ki, ətrafı süni mayalanma zamanı donordan istifadə edilmədiyini düşünməsin”.

Sosioloq yumurta hüceyrələri alverinin daha çox sosial şəbəkə, xüsusən də instaqram üzərindən aparıldığını deyib: “Qadın səhifələrində pusquya yatan həkimlər və ya assisentləri qəpik-quruşa əldə etdikləri yumurtaları sonsuzluq problemi olan qadınlara 4 və ya 5 qat baha qiymətə satır. Səhifələr bu işin qanuni olduğunu bildirirlər. Ancaq əslində bu, insan alverinin bir forması sayılır. Yəni qanunlarımız ödənişli donorluğu qadağan edir. Qanun donor olmağa könüllü və pulsuz şəkildə olması halında icazə verir. Folekul və sperma donorluğu isə 1 dəfədən çox olmamaq şərti ilə həyata keçirilməlidir. Folekulların köçürülməsi süni mayalanma deməkdir. Süni mayalanma xidmətinin reklam olunması, paylaşılması isə reklam haqqında qanunvericiliyə görə qadağandır”.

Sosioloq bildirib ki, indi paytaxtımızın bəzi klinikalarının qarşısında özlərinin sperma və folekulunu satan adamların sayı getdikcə artmaqdadır: “Bu ağrılı prosesdə hər kəsi düşündürəcək bir neçə məqam var. Bunlardan biri qanunsuz orqan alveridir. Digəri isə folekuldan, spermadan doğulacaq uşaqların gələcəyidir. Bax, ən qorxulu məqam da məsələnin ikinci tərəfidir. Folekul+sperma satan unudur ki, süni mayalanmadan doğulan övladı ilə gələcəkdə yolları kəsişə bilər. Belələrinin təsadüfən gələcəkdə evlənməyəcəyinə heç bir təminat yoxdur. Bu gedişlə, yaxın gələcəkdə bacı-qardaş evliliyi qaçılmaz olacaq. Bu işlərə çoxdan əl atmış həkimlərin sayəsində bəlkə də artıq bu baş verib, xəbərimiz yoxdur”.

Lalə Mehralı onu da qeyd edib ki, bu cür alverçi həkimlər donorları aldadır, bunun heç bir zərəri olmadığını, təhlükəsiz, təbii prosedur olduğunu deyirlər: “Amma yalan danışırlar. Əgər folekul satmağa qərar versəniz sizə onun yetişməsini sürətləndirəcək hormonal iynələr vurulacaq. Çünki bu işlə məşğul olan həkimlər 1 folekulla kifayətlənmirlər, işdir, əgər birdən mayalanma getməsə ödənilən pul boşa getməsin deyə ehtiyat folekullar götürülür. Donora vurulacaq hormonal iynələrlə ən azı 2-3, bəzən daha çox folekul yetişdirilir. Yəni sizə 1 folekul götürüləcəyini deyib müqabilində 500-700 manat ödəyib əslində 3-5, bəlkə də daha çox folekul götürürlər. Həmin an qadın dərmanla yatırdılmış olur və prosesdən xəbəri olmur. Əldə edilən hər folekulu ayrı-ayrı pasiyentə satan həkimlər qaz vurub qazan doldururlar”.

Bəs bu özbaşınalıq hansı hüquqi məsuliyyət yaradır? Sualı cavablandıran hüquqşünas Əsabəli Mustafayev bildirib ki, belə hallara Cinayət Məcəlləsinin 137-ci maddəsi şamil edilə bilər: “Bu maddəyə görə insan orqanlarının, toxumların alqı-satqısı və qanunsuz donorluq haqqında konkret məsuliyyət müəyyən edilib. Burada həm 6 min manatdan 9 min manatadək cərimə, 2 ilədək islah işləri, ya da ki, 3 il müddətində müəyyən vəzifə tutma hüququndan məhrum edilməklə 3 ilədək həbs nəzərdə tutulub. Hesab edirəm ki, haqqında danışdığımız əməllər CM-nin 137.1 maddəsinə düşə bilər. Doğrudan da belə neqativ hallarla bağlı biz çoxlu məlumatlar alırıq. Amma bu əməllərə görə kimlərinsə məsuliyyətə cəlb edildiyi barədə KİV-lərdə hər hansı bir məlumata rast gəlinmir”.

Onu da deyək ki, sosioloqun məlum iddiası geniş müzakirələrə səbəb olub. Əksəriyyətin fikrincə, hüquq-mühafizə orqanları sözügedən iddianı ciddi şəkildə araşdırmalı, həqiqətən də belə faktlar varsa, qanunvericiliyə uyğun olaraq sərt ölçü götürməlidirlər.

Bir çoxlarının fikrincə isə Azərbaycanda fəaliyyət göstərən özəl klinikalardan hər şey gözləmək olar, ona görə də sosioloqun söylədiklərinə şübhə eləməyə dəyməz. Beləleri həm də o fikirdədirlər ki, bu klinikaların əksəriyyəti nüfuzlu məmurların, vəzifə sahiblərinin qeyri-rəsmi nəzarətində, himayəsində olduğundan onlara toxunulacağı ağlabatan deyil. Üstəlik, məhz bu məmur himayəçiliyinin nəticəsidir ki, özəl tibb müəssisələri hər hansı qanunsuz əməldən çəkinmirlər, özlərini “toxunulmaz” hesab edir, onlara “qaşın üstə qara var” deyiləcəyini ağıllarına belə gətirmirlər. Lakin ümid edək ki, bu cür düşünənlər yanılacaq və biz sosioloqun heyrətamiz iddiasının, qorxunc ittihamının obyektiv şəkildə araşdırılmasının şahidi olacağıq.

**Sənan Mirzə**

## 5.3.7. işğaldan azad olunmuş ərazilərə "Böyük Qayıdış"

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# İşğaldan azad olunmuş torpaqlar öz sahiblərinə qovuşur

## Rasim Bayramov: "Şuşaya "Böyük Qayıdış" şuşalıların özünə qayıdışı olacaq"



***Prezident İlham Əliyev martın 13-də Berlində Almaniyanın aparıcı şirkətlərinin rəhbərləri ilə görüşdə "Böyük Qayıdış" adlanan dövlət proqramına artıq start verildiyini bildirib. İlham Əliyev deyib ki, təxminən 30 il ərzində işğal altında olmuş Qarabağ və Şərqi Zəngəzurun azad edilmiş torpaqlarında yenidənqurma işləri nəzərdə tutulur.***

Onun sözlərinə görə, hazırda Livanın ərazisi qədər sahə tamamilə yerlə-yeksan edilib: "Biz "Böyük Qayıdış" adlanan dövlət proqramına artıq start vermişik: Proqramı tərtib etmişik və ilk sınaq layihəsini artıq həyata keçirmişik. Müharibə bitdikdən sonra cəmi ilyarım ərzində 400-dən artıq məcburi köçkün öz yerlərinə qayıdaraq məskunlaşıb. Planımızda yüz minlərlə keçmiş məcburi köçkünü öz yurd-yuvalarına qaytarmaqdır, çünki erməni işğalı nəticəsində bir milyon soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə düşüb".

Prezidentin anonsunu verdiyi "Böyük Qayıdış"ın ayaq səsləri artıq Azərbaycan xalqının Zəfər simvolu sayılan Şuşada da hiss edilməkdədir. Artıq Şuşada da 450 mənzillik 23 yaşayış binası tikilir. Şuşa şəhəri Dövlət Qoruğu İdarəsinin məlumatına görə, Böyük Qayıdış layihəsi çərçivəsində şəhərin cənub hissəsində 8 hektar ərazidə 450 mənzildən ibarət 23 bina tikilir. Bunlar 3-5 mərtəbəli binalardır. Paralel olaraq Şuşada 960 nəfərlik orta məktəbin tikintisi də başa çatmaq üzrədir. Yeni dərs ilində məktəbin fəaliyyətə başlaması nəzərdə tutulur. Eyni zamanda Şuşa Hodel Konqres mərkəzi də istifadəyə veriləcək. Ötən il təməli qoyulan binanın tikintisi davam edir. Bu tikili daha çox qonağı qarşılamağa imkan verəcək. Burada 250-dən artıq qonağın toplantı və ya konfrans keçirməsi mümkün olacaq.

Şuşada doğulub boya-başa çatan İkinci Qarabağ müharibəsi iştirakçısı, jurnalist Rasim Bayramov da ailəsi ilə bu günü səbirsizliklə gözləyir. Həmsöhbətimiz deyir ki, Şuşadan çıxanda uşaq olsa da, o torpağa qalib xalqın ordusu kimi qayıdıb. R. Bayramov Şuşaya köçməyin bütün şuşalıların arzusu olduğunu deyir. Onun sözlərinə görə, Şuşaya "Böyük Qayıdış" şuşalıların özünə qayıdışı olacaq: "Şuşaya bayrağımız sancılan gün Qələbəmiz elan olundu. İşğaldan azad olunmuş bütün torpaqlarımız öz sakinlərinin yolunu gözləyir. Əminik ki, cənab prezidentin qeyd etdiyi kimi, "Böyük Qayıdış" proqramı ilə tezliklə hər bir məcburi köçkün öz doğma torpağına qovuşacaq. Bizim hər birimiz işğaldan azad edilmiş torpaqlarda yenidənqurma işlərini yaxından izləyirik. Ağalı kəndinə köç "Böyük Qayıdış"ın ilk müjdəçisi oldu. Biz əminik ki, işğaldan azad olunmuş ərazilərimizdə hər kənd, hər şəhər belə müasir şəkildə qurulacaq. "Böyük Qayıdış" proqramının icrası ilə mərhələli şəkildə köç baş tutacaq".

Məlumat üçün bildirək ki, fevralın 28-də Abşeron rayonunun Masazır kəndindən Zəngilan rayonunun yenidən salınmış Ağalı kəndinə növbəti köç karvanı yola salınıb.Bu köçdən sonra Bakı, Sumqayıt şəhərlərində və Abşeron rayonunda müvəqqəti məskunlaşmış 10 ailə - 50 nəfər bundan sonra doğma yurdda yaşamağa başlayıb. Köçürülənlər arasında müxtəlif müvəqqəti məskunlaşma obyektlərində çətin və ağır şəraitdə yaşayan 1-ci, 2-ci və 3-cü Ağalı kəndlərinin sakinləri var. Onlar Zəngilan rayonunun Ağalı kəndində peşə ixtisaslarına və qabiliyyətlərinə uyğun olaraq işlə təmin olunacaqlar. Ağalı kəndinə növbəti 10 ailənin köçürülməsi mart ayı ərzində təşkil ediləcək. Bununla da kənddə 86 ailənin - 420 nəfərin daimi məskunlaşması təmin olunacaq. Doğma yurda köçürülmə isə davam etdiriləcək.

Qeyd edək ki, Berlində Almaniyanın aparıcı şirkətlərinin rəhbərləri ilə görüşdə Azərbaycan Respublikasının Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdir müavini, İdarələrarası Mərkəzin Katibliyinin rəhbəri Nüsrət Süleymanov bildirib ki, Zəngilan rayonunun Ağalı kəndi ilə yanaşı azad edilmiş ərazilərdə digər kəndlər də layihələndirilir və tezliklə onların da tikintisi ilə əlaqədar işlər həyata keçiriləcək. N.Süleymanovun sözlərinə görə, Ağalı kəndində əldə edilən təcrübə digər kəndlərdə də tətbiq ediləcək: "Ağalı kəndi pilot layihədir. İstər dayanıqlı məşğulluğun təmin olunması, istər dayanıqlı inkişaf, istərsə də sahibkarlığın stimullaşdırılması və təşviqi kontekstində bütün bu məsələlərin nəzərdən keçirilməsində, növbəti planların icrasında buradakı təcrübə bizim üçün çox əhəmiyyətlidir. Düşünürəm ki, həm enerji işçi qrupunda, həm də digər işçi qrupları çərçivəsində bu təcrübədən faydalanmalıyıq".

O bildirib ki, bu vaxta qədər işçi qrupu çərçivəsində 60-dan artıq iclas keçirilib: "Amma iclaslardan kənar görüşlərdə də bu istiqamətdə aidiyyəti dövlət qurumlarının təmsilçilərinin iştirakı ilə məsələlər müzakirə edilib. Onlar tərəfindən gündəlik əsasda yaranan suallar daimi kontekstdə nəzərdən keçirilir və effektiv şəkildə öz həllini tapır".

2023-cü il ərzində Qubadlı və Zəngilanda bir neçə kəndin inşa olunması planlaşdırılır. Bu barədə isə Azərbaycan Respublikası Prezidentinin Cəbrayıl, Zəngilan və Qubadlı rayonlarındakı xüsusi nümayəndəsi Vahid Hacıyev deyib. Onun sözlərinə görə, bu rayonlarda prioritet məsələlər ilk növbədə sosial infrastrukturun tikintisindən ibarətdir. "Söhbət məktəb, xəstəxana və yollardan gedir", - V.Hacıyev qeyd edib.

O daha sonra Horadiz-Ağbənd dəmir yolunun tikintisinin 38 faiz tamamlandığını, Zəngilan aeroportunun istismara verildiyini, həmçinin digər avtomobil yollarının inşasının davam etdiyini bildirib. Bundan başqa, onun sözlərinə görə, Cəbrayılda 240 meqavat gücündə yarımstansiyanın tikintisi üzrə danışıqlar davam edir. "Bir sıra digər kiçik su elektrik stansiyaları inşa edilib və təmir olunub", - V.Hacıyev deyib.

O, Zəngilanda artıq 420 nəfərin (86 ailənin) yaşadığını və əlavə köçürülmə tədbirlərinin davam etdiyini bildirib.

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**



# Beynəlxalq Astronavtika Konqresinə rekord sayda ölkədən elmi iş təqdim olunub

***Bakıda 2-6 oktyabr 2023-cü il tarixində keçiriləcək "Qlobal çağırışlar və imkanlar: kosmosa şans verək" mövzusunda 74-cü Beynəlxalq Astronavtika Konqresinə bu il rekord sayda - 95 ölkədən elmi iş təqdim olunub.***

"Unikal" xəbər verir ki, Bakı konqresinə kosmos sahəsində fəaliyyət göstərən elm adamları və tədqiqatçılar tərəfindən kosmosa və bəşəriyyətin xeyrinə müsbət təsir göstərə biləcək 3532 elmi məqalə qeydiyyatdan keçib. Bu göstərici ilə Bakı konqresi Paris (2022), Vaşinqton (2019) və Bremen (2018) konqresləri ilə birgə indiyə kimi keçirilən bütün konqresləri geridə qoyub.

Xüsusilə vurğulanmalıdır ki, bu il Azərbaycandan təqdim olunan elmi məqalələrin sayı da 214 elmi məqalə ilə rekord həcmdə olub. Azərbaycan elminin dünya elminə inteqrasiyası fonunda ölkəmiz ən çox elmi məqalə təqdim edən ölkələr - ABŞ, İtaliya, Hindistan və Çindən sonra olmaqla ilk beşlikdə yer alır.

"Ölkəmizdən bu il Beynəlxalq Astronavtika Konqresinə təqdim olunan elmi məqalələrin sayı rekord rəqəmə çatıb. Azərbaycanlı alim və gənclər tərəfindən konqresə 214 elmi məqalə təqdim olunub. Bu, ölkəmizdə insan kapitalına verilən dəyərin, elm, tədqiqat və texnologiya sahələrində artan uğurlarımızın əyani sübutudur. Bu rəqəm əslində ölkəmizdə kosmos sahəsində elmi nəticələrin beynəlxalq platformalarda nümayiş olunması istiqamətində gənclərimizin qazandığı nailiyyətlərin davamıdır", - deyə Azərkosmosun sədri Samədдin Əsədov bildirib.

Qeyd edək ki, Bakı konqresində bütün dünyadan, o cümlədən Azərbaycandan olan elm insanları və gənclər kosmosun imkanlarına həsr olunmuş 190 texniki sessiyada və digər tədbirlərdə çıxış edə biləcəklər.

Azərbaycan elminin dünya elminə inteqrasiyası, elm-təhsil-innovasiya vəhdətinin yaradılması, gənc alimlərimizin beynəlxalq əməkdaşlıq əlaqələrinin inkişaf etdirilməsi baxımından Beynəlxalq Astronavtika Konqresi geniş imkanlar yaradacaq.

Qeyd edək ki, hazırda Beynəlxalq Astronavtika Federasiyasının Beynəlxalq Proqram Komitəsi tərəfindən qəbul olunan məqalələr qiymətləndirilir və iki formatda - texniki və ya interaktiv təqdimat sessiyalarında təqdim olunması üzərində işlər aparılır. Elmi məqalələrin tam qiymətləndirilməsi bu ilin aprel ayında yekunlaşacaq.




# DYP-dən bayramla bağlı müraciət

***Daxili İşlər Nazirliyi Baş Dövlət Yol Polisi İdarəsi qeyri-iş günlərində xidmətin təşkili ilə bağlı əhaliyə müraciət edib.***

İdarədən "Unikal"a bildirilib ki, Novruz bayramı ilə əlaqədar qeyri-iş günlərində polis, o cümlədən Dövlət Yol Polisi gücləndirilmiş iş rejimində xidmət aparacaq.

"Qeyri-iş günlərində nəqliyyat vasitələri sahiblərinin və sürücülərin asudə vaxtlarının daha çox olması nəzərə alınaraq, nəqliyyat vasitələrinin texniki baxışdan keçirilməsi üçün paytaxtın Sabunçu və Qaradağ rayonları ərazisində yerləşən texniki müayinə mərkəzləri, habelə nəqliyyat vasitələri ilə bağlı qeydiyyat hərəkətlərinin aparılması və təyin olunmuş imtahanların keçirilməsi məqsədilə, Baş Dövlət Yol Polisi İdarəsinin Qeydiyyat-imtahan idarəsi, eləcə də respublikanın digər şəhər və rayonlarındakı regional qeydiyyat-imtahan və texniki baxış şöbələri bayram günləri saat 09:00-dan 18:00-dək fasiləsiz olaraq fəaliyyət göstərəcək.

Nəqliyyat vasitələrinin sahibləri və sürücülər asudə vaxtlarını və yaradılmış imkanları dəyərləndirərək istər qeydiyyat-imtahan, istərsə də texniki baxışla bağlı adi iş günlərdə olduğu kimi DYP-nin aidiyyəti qurumlarına müraciət edə bilərlər", - məlumatda qeyd olunub.

# Bakıda məşhur restoranın sahibləri cərimələndi

***Ölkə ərazisində fəaliyyət göstərən ictimai-iaşə obyektləri və restoranlarda keçirilən növbəti monitorinqlər zamanı havaya normadan artıq tullantı atan və normativlərə uyğun fəaliyyət göstərməyən obyektlər barəsində qanunamüvafiq tədbirlər görülüb.***

Dövlət Ekoloji Təhlükəsizlik Xidmətindən "Unikal"a verilən məlumata görə, keçirilən monitorinq və səyyar laboratoriya vasitəsilə aparılan ölçmə işləri zamanı Bakı şəhərində fəaliyyət göstərən "Planet", "Xarı Bülbül", "Ay işığı", "Su səsi" və "Manisa Palace" restoranlarından havaya atılan tullantıların miqdarının normadan artıq olduğu müəyyən edilib.

Faktlarla bağlı obyekt sahibləri barəsində protokol tərtib olunub və onlar vəzifəli şəxs qismində cərimələnib.

Dövlət Ekoloji Təhlükəsizlik Xidməti ictimai-iaşə obyektləri və restoran sahiblərinə bir daha çağırış edir ki, obyektlərindəki təmizləyici qurğuların texniki göstəricilərinin normalara uyğunluğunu təmin etsinlər.

Ölkə ərazisindəki ictimai-iaşə obyektlərində monitorinq və nəzarət tədbirləri davam etdirilir.

# COVID pasportu olmayanlar Həccə gedə bilməyəcək - QMİ

***Bu il Azərbaycandan Hicc ziyarətinə gedənlərə yaş məhdudiyyəti tətbiq olunmayacaq.***

Bunu Modern.az-a Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) Xarici əlaqələr şöbəsinin müdiri Vüsal Cahangiri bildirib.

Onun sözlərinə görə, pandemiya səbəbindən 65 yaşdan yuxarı şəxslərin Həcc ziyarətinə qoyulan məhdudiyyət aradan qaldırılıb. Yəni, istənilən şəxs Həcc ziyarətinə gedə bilər.

QMİ rəsmisi vurğulayıb ki, yaş məhdudiyyəti aradan qaldırılsa da, zəvvarlardan COVID-19 pasportu tələb olunacaq.

Qeyd edək ki, bu il Azərbaycandan Həcc ziyarətinə getmək istəyən vətəndaşlar üçün qiymət müəyyənləşib. Qərara əsasən, bir nəfərlik ziyarət paketinin qiyməti 5750 ABŞ dolları təşkil edir.

# Qərbi Azərbaycan İcmasından Fransaya çağırış

***İndiki Ermənistan ərazisindən qovulmuş azərbaycanlıların öz evlərinə qayıda bilməməsi, bu ölkədə mono-etnik dövlətçilik, etnik təmizləmə və sistematik irqi ayrı-seçkilik vəziyyətinin davam etməsi böyük ədalətsizlikdir. Ermənistanın insan hüquqlarını kütləvi miqyasda pozan bu addımları beynəlxalq sülh və təhlükəsizliyə təhdid törətdiyi üçün onun aradan qaldırılmasında beynəlxalq ictimaiyyətin üzərinə böyük vəzifə düşür.***



"Unikal" xəbər verir ki, bu barədə Qərbi Azərbaycan İcmasının bəyanatında bildirilib.

"Lakin təəssüflə qeyd etmək lazımdır ki, bir sıra ölkələr vardır ki, onlar öz milli praktikaları, beynəlxalq hüquqa zidd davranışları və ikili standartları ilə Ermənistanı irqi ayrı-seçkilik siyasətinə daha da həvəsləndirirlər. Belə ölkələrdən biri Fransadır.

Fransanın etnik və dini azlıqlara qarşı dözümsüz siyasəti ciddi narahatlıq doğurur. Çoxlu sayda müxtəlif etnik və dini azlıqların yaşadığı Fransanın ümumiyyətlə milli azlıqların hüquqlarını tanımaması, onlara qarşı repressiv aktları, Avropa Şurasının Mili Azlıqlar haqqında Çərçivə Konvensiyasına qoşulmaqdan imtina etməsi kütləvi hüquq pozuntusundan əziyyət çəkmiş olan İcmamızı ciddi narahat edir.

Fransa açıq-aşkar mono-etnik cəmiyyətə nail olmağı hədəfləyib. Bu baxımdan, Fransanın etnik təmizləmə yolu ilə mono-etnik vəziyyətə nail olmuş Ermənistanın insan hüquqlarına zidd bütün davranışlarına dəstək verməsinin səbəbləri aydın olur. Özünü "insan hüquqları ölkəsi" adlandıran Fransanın bizim hüquqlarımız barədə bir dəfə də olsun mövqe bildirməməsi Ermənistanın etnik təmizləmə siyasətinə dəstəkdən başqa bir şey deyil. Eyni şəkildə, Fransa Ermənistan ərazisində Azərbaycan mədəni irsinin dağıdılması, oraya YUNESKO-nun faktaraşdırıcı missiyasının göndərilməsi məsələsi ilə bağlı edilmiş müraciətləri görməzdən gəlir.

Fransa bu azmış kimi, ərazisində çoxlu sayda etnik azlıqların qarşılıqlı anlaşma şəraitində yaşadığı Azərbaycana təzyiq etməyə və Ermənistanın ərazi iddialarına haqq qazandırmağa çalışır.

İcmamız sülh yolu ilə, təhlükəsiz və ləyaqətli şəkildə geri qayıdış yanaşması seçib. Bir daha vurğulamaq istərdik ki, beynəlxalq zəmanət və verifikasiya mexanizmləri altında təhlükəsiz və ləyaqətlə geri qayıtmaq bizim əzəli və təməl haqqımızdır. Bizim geri qayıtmaq hüququmuz mütləqdir və müzakirə mövzusu deyil. Biz İcma olaraq bu hüququmuzu sülh və dialoq yolu ilə reallaşdırmaqda qərarlıyıq. Beynəlxalq ictimaiyyət bizim bu hüququmuzun reallaşdırılmasına dəstək verməsi insan hüququnun aliliyinin və sülhün bərqərar edilməsi üçün zəruridir.

Fransaya çağırış edirik ki, öz ərazisindəki milli və dini azlıqlara qarşı ayrı-seçkilik siyasətinə son versin, dərhal Avropa Şurasının Mili Azlıqların Qorunması haqqında Çərçivə Konvensiyasına qoşulsun və BMT Təhlükəsizlik Şurasının daimi üzvü kimi öz öhdəliyini yerinə yetirib Ermənistandan qovulmuş azərbaycanlıların öz evlərinə təhlükəsiz və ləyaqətlə qayıtmalarının təmin edilməsinə dəstək versin", - deyə bəyanatda qeyd olunub.

# Vətənin unudulmaz oğlu Emin Muradov

***İkinci Qarabağ müharibəsində Vətəni öz canı, qanı ilə alınmaz qala edən qalib şəhidlərdən biri də Emin İbrahim oğlu Muradovdur. Bu Vətən sevdalısı 1986-cı ildə Lənkəran rayonu, Biləsər kəndində dünyaya göz açıb. Ömrünün 34-cü ilində müqəddəsliyinə tapındığı doğma Azərbaycanın bütövlüyü uğrunda şəhid olduğu üçün milyonların ürəyində qəhrəmanlıq simvoluna dönüb.***



Dövlət də şərəfli ölümündən sonra Eminin müharibə meydanında göstərdiyi şücaətini "Vətən uğrunda", "Cəsur döyüşçü", Füzulinin, Cəbrayılın, Qubadlının, Xocavəndin azadlığına görə medallarına layiq görüb.

Ürəyi Vətən eşqi ilə döyünən Emin Muradov 2004-cü ildə ordu sıralarına yollanır. Əsgərlik həyatı cəbhə bölgəsində başlanır. Azərbaycanın müqəddəsliyini hər şeydən əziz bilən Emin ona vicdanla xidmət etməklə zabitlərin, əsgərlərin sevimlisinə çevrilir. Necə deyərlər, Vətənə əsgər olduğu müddətdə gördükləri ilə əsl vətəndaş, sədaqətli, vətənpərvər gənc olduğunu sübut edə bilir.

Beləcə, Emin uşaqlıqdan bağlanmış Vətən qarşısında borcunu şərəflə verib doğma elində dinc əməkdən yapışır. Xeyirxah əməlləri, gözəl işləri onun yaşanan həyatını insanlara gərəkli edir. Xoşbəxtliyini doğma yurdunun ümumi səadətində görür, qisməti hörmət və məhəbbət olur. Ömrünün yaxşı çağlarına sevə-sevə yol alsa da, yağı düşmənin Qarabağın işğalına heç cür dözə bilmir. Odur ki, İkinci Qarabağ müharibəsi başlanan kimi "Vətən dardadır, mən burada dura bilmərəm"- deyib könülü döyüşən cəbhəyə gedir. Füzulidə, Cəbrayılda, Xocavənddə, Qubadlıda Vətənin qeyrətli oğulları ilə bərabər erməni dığalarına qarşı əsl qəhrəman kimi vuruşur. Son nəfəsə qədər sinəsini yanar od edib yağının barını çatladır. 20 oktyabr Qubadlı istiqamətində gedən döyüşlərdə düşmən tərəfindən atılan artilleriya mərmisi nəticəsində şəhadətə qovuşur.

Bəli, şəhidlər heç vaxt ölmürlər. Lənkəran elinin qəhrəman oğlu Emin də cismən aramızdan gedibdir. O, Vətən naminə qəhrəmanlıqla vuruşdu və gələcək nəsillərə örnək olacaq bir tarix yazdı. Özünə əbədi yer etdiyi ürəklərdə yaşamaqla həmişə böyük ehtiramla xatırlanır, adı fəxrlə, qürurla çəkilir. Qərinələr boyunca da belə olacaqdır.

***Zəfər Orucoğlu, AJB üzvü***

# Rayonlarda suyun verilməsində yaranan problemlər aradan qaldırılır

***Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin nümayəndəsi Dilqəm Şərifov bildirib ki, Son günlər Mingəçevir su anbarına saniyədə orta hesabla 240 m3 (500-600 m3 gözlənildiyi halda) su daxil olur və su anbarından Kür çayına 120 m3, eyni zamanda Yuxarı Qarabağ kanalına 70 m3 və Yuxarı Şirvan kanalına 41 m3 suyun buraxılması təmin olunur.***

Mingəçevir su anbarından aşağıda Kür çayı boyunca 12 rayonun ərazisində 252 ədəd nasos stansiyaları vasitəsilə 248 min hektar, Yuxarı Qarabağ və Yuxarı Şirvan kanallarının xidməti ərazilərində 250 min hektar, ümumilikdə 500 min hektara yaxın əkin sahələrinin suvarılması ilə yanaşı, əhalinin kommunal-məişət ehtiyaclarının, içməli su məqsədilə modul tipli su təmizləyici qurğulara və mal-qaraya suyun verilməsi təmin edilir.

Mingəçevir su anbarı bir mövsümlük deyil, çoxillik nizamlanan su anbarı olduğundan su anbarına yığılan və ondan verilən sular bir neçə ili əhatə edən dövr ərzində nizamlanmalıdır. Suyun bölüşdürülməsi aidiyyəti qurumlar tərəfindən koordinasiyalı şəkildə idarə edilir. Su anbarına daxil olan suyun nizamsız olaraq çayın aşağı axınına və magistral kanallara verilməsi yay aylarında kənd təsərrüfatı bitkilərinin intensiv suvarılması dövründə çox ciddi çətinliklər yarada bilər. Hazırda çayın mənsəbində yerləşən rayonlara suyun verilməsində qısa müddət ərzində yaran-



mış çətinliklər aradan qaldırılır.

Cəlilabadda torpaq məcralı kanal beton üzlüyə alınıb. Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin nümayəndəsi Dilqəm Şərifov bildirib ki, Cəlilabad Suvarma Sistemləri İdarəsi tərəfindən Cəlilabad rayonunda suvarma işləri uğurla davam edir.

Bunun üçün artıq bütün hazırlıq işləri yekunlaşıb. İdarənin balansında 11805 hektar suvarılan torpaq sahəsi vardır ki, ondan 7100 hektar taxıl, 1216 hektar üzüm, 635 hektar yem bitkiləri, 150 hektar pambıq, 240 hektar həyatyanı sahə, 2464 hektar meyvə tərəvəz bostan bitkiləridir. 2022-ci ildə 9354 hektar taxıl, 2472 hektar üzüm, 1613 hektar yem bitkisi, 500 hektar pambıq, 520 hektar həyatyanı sahə, 6732 hektar meyvə-tərəvəz bostan suvarma suyu ilə təmin olunub. Tədbirlər planına uyğun olaraq ötən il kanalların lildən təmizlənməsi normalara uyğun olaraq yerinə yetirilib. Bu ilin əvvəlindən isə mütəmadi olaraq kanallar lildən təmizlənir. Bu da suvarma mövsümündə yarana biləcək su itkisini minimuma endirir və maneəsiz axınını təmin edir. İdarənin balansında 12 ədəd nasos stansiya var ki, onlardan 10 ədədi dizellə, 2 ədədi elektriklə işləyir.

Rayonda suvarma mövsümündə əhəmiyyətli hesab edilən vasitələrdən biri də su tutarlarıdır. İdarənin balansında olan 3 ədəd su tutarlarında suvarma mövsümü üçün kifayət qədər su toplanıb. Bunlardan Göytəpə su anbarının su tutumu 4.2 mln kub metr, suvarılan sahə 700 hektardır. İncəçay 7 mln, Cəfərxanlı su anbarının isə 2.2 mln su tutumu var ki, hər iki anbar 1000 hektar sahəyə xidmət edir. Ötən il əsaslı təmir planı çərçivəsində Muğan torpaq məcralı kanalda betonlama işləri aparılıb. 2023-cü ildə isə işlərin davamı olaraq 660 metr məsafənin beton üzlüyə alınması nəzərdə tutulub. Bununla da kanalın xidməti ərazisində yerləşən taxıl sahələrinə suvarma suyunun itkisiz olaraq çatdırılması təmin olunub.

Qeyd edək ki, ötən il Cəlilabad Suvarma Sistemləri İdarəsi tərəfindən ümumilikdə kanallarda 547 min.kbm lildən təmizləmə işləri aparılıb. 2023-cü ildə də 544 min.kbm lildən təmizləmə işləri nəzərdə tutulub.

***Hüseyn İsgəndərov***

# Ucarda 2022-ci ildə qeydə alınmış inzibati xətalar

***2022-ci ildə inzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan əlaqədar orqanlar tərəfindən 3399 inzibati xəta aşkar edilmişdir ki, bu da 2021-ci ilə nisbətən 6,3 faiz azdır. Barəsində inzibati xətalar haqqında işlər üzrə qərar çıxarılmış şəxslərin sayı 3396 nəfər təşkil edir.***

Hesabat dövründə barəsində inzibati tənbeh tətbiq olunmuş 3399 şəxslərin strukturunda 41 nəfər xəbərdarlıq edilənlər, 3246 nəfər cərimə olunanlar, 67 nəfər xüsusi hüququ məhdudlaşdırılanlar, 45 nəfər həbs edilənlər olmuşdur.

Belə ki, yol hərəkəti qaydalarının pozulmasına yol vermiş 2385 nəqliyyat vasitəsinin sürücüsü aşkar edilmiş və 224239,0 manat cərimə tətbiq olunmuşdur. Eyni zamanda yolda müəyyən edilmiş hərəkət sürəti həddini aşma maddəsi ilə 45 sürücüyə 1040 manat, təhlükəsizlik kəmərini bağlamadan nəqliyyat vasitəsini idarə etməyə, işıq cihazlarından və səs siqnallarından istifadə qaydalarının pozulmasına görə 351 sürücüyə 10930,0 manat və nəqliyyat vasitəsini idarə etmək hüququ olan şəxs tərəfindən nəqliyyat vasitəsini alkoqoldan, narkotik vasitələrdən, psixotrop maddələrdən və ya güclü təsir göstərən digər maddələrdən istifadə olunması



nəticəsində sərxoş vəziyyətdə idarə edilməsinə görə 11 sürücüyə 3900 manat, eləcə də nəqliyyat vasitələrinin sürücüləri tərəfindən nəqliyyat vasitələrinin istismarı qaydalarının pozulmasına görə 155 sürücüyə 9240,0 manat cərimə tətbiq olunmuşdur. Karantin qaydalarının pozulmasına görə ümumilikdə 104 nəfərə 22550,0 manatlıq cərimə tətbiq olunmuşdur.

Vergilərin və digər icbari ödənişlərin vaxtında ödənilməməsinə görə 8 şəxs inzibati məsuliyyətə cəlb edilərək 436395.5 manat miqdarında cərimə olunmuşlar.

Ictimai qayda, ictimai təhlükəsizlik və ictimai mənəviyyat əleyhinə olan 314 inzibati xəta aşkar edilmişdir ki, onlardan da 54,8 faizi yanğın təhlükəsizliyi qaydalarının pozulması və ya yerinə yetirilməməsinə görə, 36,3 faizi xırda xuliqanlıq, 0,3 faizi avtoxuliqanlıq, 8,6 faizi avaralıqla məşğul olma hallarının payına düşür. Qeyd edilmiş inzibati xətalarla bağlı 319 şəxs inzibati məsuliyyətə cəlb edilmişdir və onların da 100 faizinin barəsində inzibati tənbeh tətbiq olunaraq, 10 faizi xəbərdarlıq edilmiş, 89,7 faizi cərimə olunmuş, 0,3 faizi isə xüsusi hüququ məhdudlaşdırılanlar olmuşdur

Vətəndaşların çağırış məntəqələrinə təhkim edilməsi üçün üzrlü səbəblər olmadan çağırış üzrə hərbi komissarlığa gəlməməsi və hərbi qeydiyyat sənədlərinin qəsdən korlanması və ya itirilməsinə görə 59 şəxsə 2290,0 manat dəyərində cərimə edilmişdir.

İstehlakçıların hüquqlarının pozulmasına görə 1 nəfər aşkar edilərək məsuliyyətə cəlb edilmiş və onlara ümumilikdə 2000,0 manat cərimə tətbiq olunmuşdur.

***Ucar Rayon Statistika İdarəsinin aparıcı məsləhətçisi Cəlil Vəliməmmədov***



## Ali məktəblərə və kolleclərə sənəd qəbulu başa çatdı

***Ali təhsil müəssisələrinin bakalavr səviyyəsinə və tam (11 illik) orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə sənəd qəbulu başa çatıb.***

"Unikal" Dövlət İmtahan Mərkəzinin saytına istinadən xəbər verir ki, martın 1-dən başlayan sənəd qəbulu martın 15-i saat 23:59-da başa çatıb.

Ümumilikdə, ali təhsil müəssisələrinə sənəd verənlərin sayı 101489 olub. Onlardan 92544-ü Azərbaycan, 8945-i isə rus bölməsi üzrədir.

Tam (11 illik) orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə sənəd qəbulu verənlərin sayı isə 89416-dır. Onlardan 83740-ı Azərbaycan, 5676-sı rus bölməsi üzrədir.

## Bakı metrosunun iş qrafiki dəyişir

***"Bakı Metropoliteni" QSC-nin iş rejimində dəyişiklik edilir.***

Qurumun Mətbuat xidmətinin rəhbəri Bəxtiyar Məmmədovun "Unikal"a verdiyi məlumata görə, martın 19-21-i şəhər mərkəzinə, bayram gəzintisi və müxtəlif tədbirlərin keçiriləcəyi məkanlara yaxın stansiyalarda əlavə işçi qüvvəsi cəlb edilməklə növbətçilik cədvəli tərtib olunub.



B.Məmmədov qeyd edib ki, 19-21 martda "Həzi Aslanov"-"28 May" sahəsində qatarların hərəkəti 2,5 dəqiqəlik, ayın 22-24-də isə 3 dəqiqəlik intervalla tənzimlənəcək: ""28 May" stansiyasında Qırmızı və Yaşıl xətlər birləşdiyindən "İçərişəhər" və "Dərnəgül" stansiyaları istiqamətində qatarların hərəkət intervalı iki dəfə çox olacaq.

Bununla belə, sərnişin axınının tənzimlənməsi məqsədilə "Nərimanov" elektrik deposunda ehtiyat qatarlar saxlanılacaq və zərurət yaranacağı təqdirdə xəttə buraxılacaq. "Bakmil" istiqamətinə və əksinə hərəkət edən sərnişinlərin diqqətinə çatdırılır ki, qatarların hərəkət cədvəli martın 19-21-də şənbə günü qrafikinə, ayın 22-24-də isə bazar günü qrafikinə uyğun olacaq".



# Suriya işğal edilən Ukrayna ərazilərini Rusiya kimi tanıdı

***Dəməşq Donetsk və Luqansk Xalq Respublikaları, Xerson və Zaporojye vilayətlərinin ilhaqından sonra Rusiyanın yeni sərhədlərini də tanıyacaq.***

"Unikal" xəbər verir ki, bunu Suriya prezidenti Bəşər Əsəd "RİA Novosti" agentliyinə müsahibəsində deyib.

Suriya liderinin sözlərinə görə, ölkəsinin bu məsələdə mövqeyi aydın və qətidir və tarixi faktlara əsaslanır.

Əsəd bu ərazilərin təxminən 100 il əvvəl Ukraynaya verildiyini və Rusiya vətəndaşlarının orada yaşadığını xatırladıb. O, həmçinin Suriyanın bu bölgələri hələ Rusiyaya qoşulmamışdan əvvəl tanıdığını bildirib.

*Ağarza Elçinoğlu*

# Kolumbiyada 3 kömür mədəni partladı - Ölən və itkin düşənlər var

***Kolumbiyanın Cundinamarka inzibati bölgəsindəki 3 kömür mədənində ard-arda partlayışlar baş verib.***

"Unikal" xəbər verir ki, güclü partlayış nəticəsində 11 mədənçi həyatını itirib, 10 nəfər isə itkin düşüb.

Partlayışlar Sutatausa şəhərinin El Kajon bölgəsindəki El Hoyo, Lucero və La Esperanza kömür mədənlərində qeydə alınıb.

# ABŞ-ın hərbi helikopteri qəzaya uğradı - Ölənlər var

***İraqda ABŞ-a məxsus hərbi helikopter qəzaya uğrayıb.***

"Unikal" xəbər verir ki, hadisə ölkənin qərbində yerləşən Ənbar vilayətində baş verib. Məlumata görə, helikopterdə 7 nəfər olub. Həmin şəxslərin hamısı ölüb, onlardan 6 nəfərinin cəsədləri tapılıb.

# Rusiyada keçmiş mer paylaşımına görə saxlanıldı

***Yekaterinburq şəhərinin keçmiş meri Yevgeni Royzman "VKontakte" sosial şəbəkəsindəki paylaşımına görə saxlanılıb.***

"Unikal" xəbər verir ki, bu barədə onun vəkili Vladislav İdamjapov bildirib.

Eks-mer Rusiya Silahlı Qüvvələrinin nüfuzdan salınması ilə bağlı cinayət işi üzrə təqsirləndirilir.

"Roizman cinayətdə günahsızdır, çünki onun heç vaxt "VKontakte"də səhifəsi olmayıb. Siyasətçini 10-15 sutka həbs gözləyir", - deyə vəkil açıqlayıb.

# Yaponiya Tayvan yaxınlığındakı adaya qoşun yeritdi

***Yaponiya martın 16-da Tayvan və mübahisəli Senkaku adaları yaxınlığında yerləşən İşigaki adasına zenit və gəmi əleyhinə raket bölmələri də daxil olmaqla Quru Özünümüdafiə Qüvvələrindən 570-ə qədər əsgər yerləşdirib.***

"Unikal" xəbər verir ki, bu barədə "Japan Times" agentliyi məlumat yayıb.

Məlumata görə, ordu Çinin yaxınlıqdakı sularda hərbi əməliyyatlarının intensivləşməsinə cavab olaraq həyata adaya yeridilib. Qeyd olunur ki, Çin gəmiləri dəfələrlə yaşayış olmayan adalar ətrafında Yaponiyanın ərazi sularına daxil olub.

# "5-ci kolon"un lideri Paşinyan özüdür - Erməni general

***"5-ci kolon"un lideri Nikol Paşinyan özüdür, ordunu məhv edən belə bir lider varsa, o lider Paşinyandır.***

"Unikal" xəbər verir ki, bunu Ermənistanın keçmiş baş qərargah rəisi Movses Akopyan deyib.

Akopyan Paşinyanın mətbuat konfransında iştirak edən jurnalistlərin baş nazirə onun kimləri nəzərdə tutduğunu, o adamların niyə hələ də həbs edilmədiyini soruşmalı olduqlarını bildirib.



"Müdafiə naziri bəzi mötərizələr açdı ki, "ordumuz xarici təhriklə içəridən zəifləndilib". Görünür, onlar Paşinyanın Rusiyanı nəzərdə tutduğuna eyham vurur", - deyə general-polkovnik qeyd edib.

Onu da deyək ki, Ermənistanın baş naziri 2020-ci ildə Qarabağda müharibənin uduzulmasında beşinci kolonu günahkar hesab edib.

# Makron Fransa Parlamentini buraxa bilər

***Fransa prezidenti Emmanuel Makron pensiya islahatı layihəsi üçün kçeirilməcək səsvermənin uğursuz olacağı təqdirdə Fransa Parlamentini (parlamentin aşağı palatası) buraxmaqla hədələyib.***

"Unikal" xarici KİV-ə istinadən xəbər verir ki, bununla bağlı Yelisey sarayında görüş keçirilib.

Makron martın 15-i axşam saatlarında Baş nazir Elizabet Born və islahatla bağlı bir sıra nazirlərlə görüşüb. Pensiya islahatı Fransa prezidentinin əsas ideyalarından biridir.

İslahat kişilər və qadınlar üçün rəsmi pensiya yaşının 2030-cu ilə qədər tədricən 62-dən 64-ə qaldırılmasını nəzərdə tutur. Bu artım 1961-ci ilin sentyabrında və sonra doğulan fransızlara təsir edəcək.

Qeyd edək ki, sözügedən islahat bir neçə gündür ki, kütləvi etiraz və tətillərə səbəb olub.

*Ağarza Elçinoğlu*



# Qırğızıstan-Tacikistan sərhədindəki mübahisəli ərazilərlə bağlı növbəti danışıqlar aparılıb

***Qırğızıstan və Tacikistan arasında sərhəd boyunca mübahisəli ərazilərlə bağlı danışıqların növbəti mərhələsini keçirilib.***

Bu barədə Qırğızıstan hökumətinin mətbuat xidməti məlumat yayıb.

Görüşün tam təfərrüatları açıqlanmasa da, qeyd olunub ki, tərəflər görüşün yekunlarına dair protokol imzalayıblar. Sənədin təfərrüatları açıqlanmır.




Həmçinin qeyd olunub ki, bu qəbildən olan növbəti görüş Qırğızıstan ərazisində baş tutacaq.

Xatırladaq ki, Qırğızıstanla Tacikistan arasında dövlət sərhədinin uzunluğu təqribən 980 kmdir və sərhədlərin delimitasiyası (dövlət sərhədinin keçidinin təsviri və xəritələşdirilməsi ilə müəyyən edilməsi) üzrə danışıqlar 2002-ci ilin dekabrından davam edir.

# ABŞ Çinə sərt ultimatum verdi

***ABŞ prezidenti Co Baydenin administrasiyası "TikTok" sosial şəbəkəsinin çinli sahiblərindən öz səhmlərini satmağı tələb edir, əks halda proqram ABŞ-da qadağan edilə bilər.***

"Unikal" xəbər verir ki, bu barədə The Hill məlumat yayıb.

"Bayden administrasiyası "TikTok"un çinli sahiblərindən sosial şəbəkə proqramındakı paylarını satmağı və ya ABŞ-da mümkün qadağa riski ilə üzləşmələrini tələb edir".

Belə bir tələbin ABŞ-da Maliyyə Nazirliyinin Xarici İnvestisiyalar üzrə Komitəsi (CFIUS) tərəfindən irəli sürüldüyü aydınlaşdırılır.

Qeyd edək ki, ötən ilin sonunda ABŞ Konqresi federal hökumətin telefonlarında və elektron cihazlarında "TikTok" sosial şəbəkəsindən istifadəni qadağan edən qanun layihəsini təsdiqləyib.

Fevral ayında Ağ Ev bütün federal qurumlara "TikTok"u bütün hökumət cihazlarından silmək üçün 30 gün vaxt verib. Artıq ABŞ-ın on üç ştatı Çində yerləşən ByteDance şirkətinə məxsus "TikTok"a qarşı tədbir görüb.




*Gülayə Mecid*

# İndoneziyada güclü zəlzələ oldu

***İndoneziyanın Şərqi Yava əyalətində 5,2 bal gücündə zəlzələ baş verib.***

"Unikal" xəbər verir ki, bu barədə Avropa-Aralıq dənizi Seysmoloji Mərkəz (EMSC) məlumat yayıb.

Zəlzələ Cember şəhərindən 266 kilometr cənubda baş verib. Dağıntılar barədə məlumat yoxdur.

# "Futbolçularımla fəxr edirəm" - Oliver Qlasner



***Frankfurt "Ayntraxt"ının baş məşqçisi Oliver Qlasner Çempionlar Liqasının 1/8 final mərhələsinin cavab oyununda "Napoli"yə məğlubiyyəti (0:3) şərh edib.***

O, UEFA-ya açıqlamasında deyib: "Etiraf etməliyəm ki, "Napoli" daha yaxşı idi, amma komandamı tanımaq istəyirəm. Evdəkindən daha yaxşı oynadıq. Mən futbolçularımla çox fəxr edirəm. Debüt mövsümümüzdə Çempionlar Liqasının pley-off mərhələsinə yüksəldik. Amma 1/8 finalda indiyədək bizim üçün çox çətin olan rəqibimiz var idi.

Dörd müdafiəçi ilə oynamağımız xoşuma gəldi. Biz cəsarətlə irəli getdik, cinahlardan bir neçə şans yaratdıq, lakin azad zonalarda açılışlarda problem yaşadıq".

# "Real" "Liverpul"un jestinə belə cavab verdi

***Çempionlar Liqasının 1/8 final mərhələsinin "Real" - "Liverpul" cavab matçının (1:0) sonunda "Santyaqo Bernabeu"da İngiltərə klubunun himni səsləndirilib.***



Qol.az xəbər verir ki, hakim Feliks Zvayerin oyunun bitdiyini bildirən fitindən sonra Madrid təmsilçisin himni əvəzinə "You'll Never Walk Alone" mahnısı səsləndirilib. İspaniya klubu İngiltərədəki ilk oyundan əvvəl "Liverpul"un hərəkətinə belə cavab verib. Həmin görüş ərəfəsində "Real"ın fəxri prezidenti Amansio dünyasını dəyişib. Qarşılaşma bir dəqiqəlik sükutla başlayıb və Mersisayd təmsilçisinin əfsanəvi keçmiş futbolçusu və məşqçisi Kenni Dalqliş "Real"ın azarkeşlərinin olduğu sektorun önünə gül dəstələri qoyub.

Xatırladaq ki, "Real" Çempionlar Liqasında "Liverpul"u ümumi hesabda 6:2 hesabı (5:2, 1:0), ilə məğlub edərək 1/4 finala yüksəlib.

# Messi PSJ ilə müqaviləsini bu şərtlərlə uzadacaq

***PSJ-nin hücumçusu Lionel Messi Paris təmsilçisi ilə müqaviləsini yalnız bir neçə şərtlə uzadacaq.***

Qol.az xəbər verir ki, bu barədə "Marca" nəşri məlumat yayıb. Bildirilib ki, PSJ ilə müqaviləsi bu ilin iyununda başa çatacaq 36 yaşlı oyunçu klubunun yeni layihəsinə aydınlıq gətirmək istəyir. Messi hazırkı baş məşqçi Kristof Qaltyenin komandada qalıbqalmayacağını, parislilərin yayda heyəti gücləndirmək üçün hər hansı müqavilə imzalanıb-imzalamayacağını və maliyyə fair-play məhdudiyyətləri fonunda onunla müqaviləni yenilənib-yenilənməyəcəyini bilmək istəyir.



İspaniya nəşri onu da qeyd edir ki, Messinin atası, eyni zamanda futbolçunun agenti olan Xorxe Səudiyyə Ərəbistanına səfər edib. Lakin onun səfərində məqsəd oğlunun yerli klublardan birinə potensial transferini müzakirə etmək olmayıb.

# "Turan Tovuz" "Səbail"ə, "Neftçi" "Kəpəz"ə qarşı

***Misli Premyer Liqasında 27-ci tur davam edir.***



2-ci oyun günündə 2 matç keçiriləcək. Əvvəlcə "Turan Tovuz" "Səbail"in qonağı olacaq. Görüş saat 16:00-da başlayacaq.

Günün digər oyununda "Neftçi" "Kəpəz"i qəbul edəcək. Bu matç isə saat 19:00-da başlayacaq.

16 mart (cümə axşamı)
16:00. "Səbail" - "Turan Tovuz"
Hakimlər: Əliyar Ağayev, Zeynal Zeynalov, Akif Əmirəli, Rəvan Həmzəzadə
"ASCO Arena"
19:00. "Neftçi" - "Kəpəz"
Hakimlər: Elçin Məsiyev, Namiq Hüseynov, Elşad Abdullayev, Rövşən Rəcəbov
"Bakcell Arena
17 mart (cümə)
17:00. "Qəbələ" - "Şamaxı"
Hakimlər: Rəşad Əhmədov, Kamran Bayramov, Rahil Ramazanov, Kamran Əliyev
Qəbələ şəhər stadionu
15 mart (çərşənbə)
"Zirə" - "Sabah" - 0:2
"Sumqayıt" - "Qarabağ" - 0:6

| N | Klublar | O | Q | H | M | T-F | X |
|---|---|---|---|---|---|---|---|
| 1 | Qarabağ | 27 | 22 | 5 | 0 | 70-15 | 71 |
| 2 | Sabah | 27 | 19 | 5 | 3 | 59-18 | 62 |
| 3 | Neftçi | 26 | 17 | 4 | 5 | 47-22 | 55 |
| 4 | Zirə | 27 | 10 | 7 | 10 | 30-36 | 37 |
| 5 | Qəbələ | 26 | 8 | 9 | 9 | 30-32 | 33 |
| 6 | Turan Tovuz | 26 | 7 | 6 | 13 | 20-34 | 27 |
| 7 | Sumqayıt | 27 | 5 | 6 | 16 | 17-50 | 21 |
| 8 | Kəpəz | 26 | 4 | 9 | 13 | 25-47 | 21 |
| 9 | Şamaxı | 26 | 4 | 8 | 14 | 23-41 | 20 |
| 10 | Səbail | 26 | 4 | 5 | 17 | 19-45 | 17 |

**Bombardirlər:**
Musa Qurbanlı ("Qarabağ") - 20 qol
Ramil Şeydayev ("Qarabağ") - 17 qol
Coy Lens Mikels ("Sabah") - 14 qol
Emin Mahmudov ("Neftçi") - 13 qol
Aleksey Kaşuk ("Sabah") - 11 qol

# "Qarabağ" - "Qalatasaray" oyununda stadionun ən az 80-90 faizi dolacaq"



***"Oyuna azarkeş marağının böyük olduğunu deyə bilərəm. Çünki Azərbaycanda Türkiyə futboluna maraq həddindən artıq çoxdur".***

Bu sözləri Qol.az saytına açıqlamasında İdman Könüllüləri və Azarkeşləri İctimai Birliyinin İdarə Heyətinin rəhbəri Atanur Cəfərli deyib. O, martın 26-da Bakı Olimpiya Stadionunda keçiriləcək "Qarabağ" - "Qalatasaray" xeyriyyə oyununa azarkeş marağından danışıb: "Qalatasaray" kimi böyük bir klubun ölkəmizdə minlərlə azarkeşi var. Onların da, "Qarabağ" fanatlarının da sayı kifayət qədər çoxdur. Düşünürəm ki. stadionun ən az 80-90 faizi dolacaq. Həm "Qalatasaray" qardaş ölkə Türkiyənin komandası olduğuna, həm də oyunun xeyriyyə matçı olmasına görə məncə, azarkeşlər stadiona gedib zəlzələdən əziyyət çəkən insanlara dəstəklərini ifadə edəcəklər. Oyunun Bakı Olimpiya Stadionunda keçirilməsi qərarı da azarkeşlərin sayı ilə bağlı idi. Çünki matç Tofiq Bəhramov adına Respublika Stadionunda olsaydı, azarkeşlərin bir çoxu biletsiz qalacaqdı. Oranın tutumu 30 min nəfərlikdir. Bakı Olimpiya Stadionunda isə azarkeşlər üçün kifayət qədər yer olacaq".

A.Cəfərli qeyd edib ki, icrimai birlik olaraq azarkeşlərin oyun üçün əllərindən gələn dəstəyi nümayiş etdirəcəklər: "Biz də İdman Könüllüləri və Azarkeşləri İctimai Birliyi olaraq həmin oyunda könüllü fəaliyyət göstərəcəyik. Azarkeşlərin stadiona rahat şəkildə daxil olmasına, stadionu tərk etmələrinə, onların tribunalarda yerləşdirilməsinə öz köməkliyimizi göstərəcəyik, əlimizdən gələn dəstəyi verəcəyik. İnanıram ki, bu matç azərbaycanlı azarkeşlərin xatirəsində uzun illər qalacaq".

Qeyd edək ki, "Qarabağ" - "Qalatasaray" görüşü martın 26-da keçiriləcək və saat 20:00-da başlayacaq. Oyunun bilet satışından əldə olunan gəlir Türkiyədə baş verən güclü zəlzələdən zərər çəkənlərə göndəriləcək. Görüş üçün bilet satışı sabah saat 11:00-da başlayacaq.